# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

# PROTOKOLU № 76

*Milli Məclisin iclas salonu.*
*19 iyun 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 102 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 10.59 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Sahil Babayev**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Himalay Məmişov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**Asif Qasımov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatı rəhbərinin müavini.

**Mais Piriyev**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri.

**Azər Bayramov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Faiq Orucov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Daxilolmalara Nəzarət Baş İdarəsinin rəisi.

**Rauf Səlimov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Rəhman Hümmətov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).

6. "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında

dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” və “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Zahid Oruc, Vüqar Bayramov, Kamal Cəfərov, Samir Vəliyev, Soltan Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**4. "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**5. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Siyavuş Novruzov, Razi Nurullayev, Azər Allahverənov, Rəşad Mahmudov, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**6. “Dövlət qulluğu haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Sevil Mikayılova, Sahib Alıyev, Elçin Mirzəbəyli, Hicran Hüseynova, Vüqar Rəhimzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında”, “Nəqliyyat haqqında”, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Aviasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Əli Hüseynli, Göydəniz Qəhrəmanov, Hikmət Məmmədov, Erkin Qədirli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**8. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Razi Nurullayev, Elçin Mirzəbəyli, Məlahət İbrahimqızı

**Təklif:** İclas fasiləsiz olsun

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**9. “Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “İctimai iştirakçılıq haqqında” və “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Erkin Qədirli, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**10. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Hicran Hüseynova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Zahid Oruc, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*19 iyun 2026-cı il. Saat 10.59*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 10.59 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Yetərsay var, biz iclasa başlaya bilərik.

Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə 14 məsələ var.

1-ci məsələ Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Məsələ ilə əlaqədar nazirimiz, hökumət

üzvləri, Hesablama Palatasının rəhbərliyi və digər vəzifəli şəxslər bizim iclasımızda iştirak edirlər. Mən onları bir daha salamlayıram.

Hörmətli deputatlar, qanun layihəsi ikinci oxunuşda müzakirəyə təqdim edilir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Azər Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Minnətdaram. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin birinci oxunuşu zamanı hörmətli maliyyə naziri dövlət büdcəsinin illik icrası ilə bağlı geniş hesabat təqdim etmişdir. Eyni zamanda, Hesablama Palatasının sədri dövlət büdcəsinin icrası barədə rəy və təkliflərini səsləndirmiş, aparılan müzakirələr zamanı isə 10 nəfər həmkarımız çıxış edərək öz mövqeyini bildirmişdir.

Qanun layihəsinin ikinci oxunuşunun tələblərinə uyğun olaraq, qeyd etmək istəyirəm ki, 2025-ci ildə qlobal iqtisadi və geosiyasi qeyri-müəyyənliklərin davam etməsinə baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, dövlət maliyyəsinin idarə edilməsində dayanıqlılıq təmin edilmiş, sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə maliyyələşmə uğurla həyata keçirilmişdir.

2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39 milyard 184,6 milyon manat təşkil etmiş, bu da təsdiq olunmuş proqnozdan 2,2 faiz çox olmuşdur. Dövlət büdcəsinin xərcləri 38 milyard 604,6 milyon manat təşkil etmiş, təsdiq edilmiş göstərici ilə müqayisədə 6,8 faiz az icra olunmuşdur. Nəticədə dövlət büdcəsi 580 milyon manat profisitlə başa çatmışdır.

2026-cı il yanvarın 1-nə Azərbaycan Respublikasının dövlət borcu faktiki ümumi daxili məhsulun 20,1 faizini təşkil etmişdir ki, bu da beynəlxalq meyarlar baxımından təhlükəsiz səviyyə hesab olunur. Həmin tarixə vahid xəzinə hesabının sərbəst qalığı 1 milyard 330,3 milyon manat olmuşdur ki, bu da dövlət maliyyəsinin dayanıqlığının mühüm göstəricilərindən biridir.

2025-ci ildə dövlət büdcəsinin uğurla icrası nəticəsində əhalinin sosial rifahının yüksəldilməsinə yönəlmiş öhdəliklərin tam və vaxtında yerinə yetirilməsi təmin edilmişdir. Müdafiə və milli təhlükəsizlik sahəsində xərclər dövlət siyasətinin əsas prioritetlərindən biri kimi saxlanılmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa, yenidənqurma və məskunlaşma proqramlarının maliyyələşdirilməsi davam etdirilmişdir.

Nəqliyyat, logistika, enerji və digər strateji infrastruktur layihələrinin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaitləri ayrılmışdır. Sahibkarlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunun genişləndirilməsi istiqamətində dövlət dəstəyi tədbirləri davam etdirilmişdir.

Ölkənin iqtisadi dayanıqlığının möhkəmləndirilməsi və uzunmüddətli inkişaf hədəflərinin təmin olunması istiqamətində mühüm nəticələr əldə edilmişdir. Bir daha vurğulamaq istərdim ki, 2025-ci ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetlərinə, sosial-iqtisadi hədəflərə və milli maraqlara uyğun olaraq icra edilmişdir. Büdcənin icrası dövlət əhəmiyyətli layihələrin və təşəbbüslərin həyata keçirilməsinə, dövlətin əsas funksiyalarının fasiləsiz yerinə yetirilməsinə, eləcə də vətəndaşların sosial rifahının yüksəldilməsinə etibarlı maliyyə təminatı yaratmışdır.

Hörmətli həmkarlar, yuxarıda qeyd olunanları nəzərə alaraq, 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin ikinci oxunuşda dəstəklənməsini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bu, ikinci oxunuşdur, ona görə biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə indi də əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Biz müzakirəyə keçirik, yazılanlar var. Təklif olunur, 5 dəqiqə. Hamı razıdır? Səsə qoymağa ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri və hökumət üzvləri. Birinci oxunuşda mən layihə ilə bağlı çıxış etmişdim, qeydlərimi bölüşmüşdüm və ona müsbət səs vermişdik. İndi isə deyəcəyim məsələ ölkəmizin iqtisadi, sosial, təhlükəsizlik həyatı ilə bağlı olduğundan mən söz götürdüm və üç dəqiqə çərçivəsində onları sizinlə bölüşməyə

çalışacağam. Bir daha söyləyirəm ki, ölkəmizin elə büdcə həyatı ilə də birbaşa bağlıdır.

6 illik fasilədən sonra Müstəqillik Günü ərəfəsində Bakı–Tbilisi–Bakı sərnişin qatarının gündəlik əsasda fəaliyyətini bərpa etməsi regional təhlükəsizlikdən iqtisadi inteqrasiyaya, sərhədlərin qorunmasından kommunikasiyaların açılmasına keçidin mühüm siyasi siqnalıdır. 2020-ci ildən başlayaraq əvvəl pandemiya, daha sonra bölgədə yaranan hərbi və təhlükəsizlik təhdidləri dövlətimizi sərhədlərdə müxtəlif məhdudiyyətlərə məcbur etdi. Verilən qərarın xarici ticarətə, ailə əlaqələrinə, turizmə və müntəzəm hava nəqliyyatından istifadə edə bilməyən vətəndaşlara müəyyən sosial və humanitar çətinliklər yaratdığını da etiraf etməliyik. Lakin inkaredilməz faktdır ki, Vətən müharibəsi zamanı sərhədlərimizin təhlükəsizliyi qələbənin görünməyən müdafiə xəttinə çevrildi. İşğaldan azad edilən 500 kilometrdən artıq dövlət sərhədinə nəzarətin bərpası Xankəndidə suverenliyin tam təmin olunmasına aparan yolun mühüm mərhələsi oldu. Azərbaycan arxa cəbhədən xarici müdaxilə, qeyri-qanuni silah, texnika və canlı qüvvə daşınması imkanlarını minimuma endirdi. Bağlı sərhəd həmin dövrdə təhlükəsizliyin zərurəti idi isə, indi açılan sərnişin qatarı sülhün relslər üzərindəki bir simvoludur. Unutmamalıyıq ki, qərar Rusiya–Ukrayna müharibəsinin və Yaxın Şərqdə hərbi gərginliyin hələ də səngimədiyi bir vaxtda qəbul olunur.

Açılım yalnız Gürcüstan istiqaməti ilə məhdudlaşmır, daha geniş regional inteqrasiyanın mühüm bir həlqəsidir. Türkiyənin Ermənistan üzrə xüsusi nümayəndəsi Sərdar Kılıç Əlican–Marqara sərhəd məntəqəsindən keçərək İrəvana gedib. Cevdet Yılmaz Paşinyanla Ani körpüsünün birgə bərpasına dair razılaşma sənədi imzalayıb. Lakin qardaş ölkənin

sərhədlərin açılması və diplomatik münasibətlərin qurulması məsələsində Azərbaycan–Ermənistan sülh müqaviləsi imzalanandan sonra qərar verəcəyinə heç bir şübhə yoxdur.

Bəzi dairələr Dilicanı gündəmə gətirir. İğdır və Qars regionlarının biznes çevrələrinin maraqlarını qabardırlar. Lakin iki dövlətin siyasi mövqeyini lokal maraq qrupları deyil, sayı 100 milyona yaxınlaşan xalqlarımızın birgə iradəsi və prezidentlər – İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın strateji liderliyi müəyyən edir. Yaxın illərdə, bəlkə də daha tez Bakıdan qatarla Zəngəzur üzərindən Naxçıvana, oradan isə Türkiyəyə getmək mümkün olacaq. Ermənistanla ixrac və tranzit imkanlarının genişlənməsi həmin ölkənin ənənəvi iqtisadi asılılıq coğrafiyasını dəyişdirir, sülhdən fayda götürən insanların, qüvvələrin sayını artırır.

Zəngəzur istiqamətində və İranla tarixi dəmir yolu əlaqələrinin bərpası perspektivi göstərir ki, Cənubi Qafqaz heç vaxt indiki qədər davamlı sülhə, iqtisadi bağlılığa və kommunikasiya bütövlüyünə yaxın olmayıb. Əsrlər boyu müharibələr, işğallar və blokadalarla parçalanan region yenidən birləşmək imkanı qazanır.

Yekunda inanırıq ki, sərnişin qatarlarının keçdiyi yollar sabah avtomobillər, insanlar, ticarət və qarşılıqlı etimad üçün açılacaq. Qələbəmizin ən böyük mükafatı yeni müharibələr deyil, təhlükəsizlik, əməkdaşlıq və əbədi sülh olacaq.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim. Bu, qanun layihəsinin ikinci oxunuşudur. İkinci oxunuşun qaydalarına uyğun olaraq hansı isə dəyişiklikləriniz, təklifləriniz varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən də qanun layihəsini dəstəkləyirəm və qanun layihəsinə səs verəcəyəm. Eyni zamanda, ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra məqamları qeyd etmək istərdim. Təbii ki, ikinci oxunuşun tələblərinə uyğun olaraq, 2025-ci ilin dövlət büdcəsinin icra sənədini qiymətləndirən zaman həm büdcənin gəlirlər, həm xərclər, həm də gəlir və xərc maddələrinə ayrı-ayrılıqda baxmağımız önəmlidir. Nəzərə alsaq ki, 2025-ci ilin dövlət büdcəsinin icrası təsdiq edir, ötən il, bütövlükdə, büdcənin gəlirlər istiqaməti, yəni gəlirlər maddəsi üzrə fiskal diversifikasiya meyllərinə nail olmaq mümkün olub. Belə ki, 2025-ci ilin dövlət büdcəsinə qeyri-neft-qaz sektorundan 20 milyard 365 milyon manat vəsait cəlb olunub, bu da büdcə gəlirlərinin, yəni bizim müzakirə etdiyimiz istiqamət üzrə 52 faizi deməkdir. Eyni zamanda, bu o deməkdir ki, 2025-ci ildə büdcə gəlirlərinin yarıdan çoxu qeyri-neft və qaz sektorunun payına düşür. Bu da, təbii ki, iqtisadi diversifikasiya, eləcə də fiskal şaxələnmə baxımından çox vacib məqamlardan biridir.

Eyni zamanda, ikinci oxunuşun tələblərinə uyğun olaraq, digər vacib məqam gəlirlər maddəsi üzrə diqqətçəkən xüsusi istiqamətlərdən biri qeyri-neft-qaz sektorunun fiskal gəlirlərimizdəki payının artmasıdır. Belə ki, 2025-ci ildə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 16 milyard 335 milyon manat vəsait daxil olub, bu da, bütövlükdə, daxil olan vəsaitlərin 73,4 faizinin qeyri-neft-qaz sektorunun payına düşdüyündən xəbər verir.

Digər maddə gömrük orqanları vasitəsi ilə dövlət büdcəsinə daxilolmalardır ki, 2025-ci ildə bu rəqəm 6 milyard 369 milyon manat olub. Sadəcə, bu istiqamət üzrə bir məqamı qeyd etmək lazımdır ki, gömrük

orqanlarının funksiyası, – xüsusən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir, – daha çox fiskal deyil, iqtisadi təhlükəsizliyin qorunmasına xidmət edir. O baxımdan biz bu maddə üzrə gömrük orqanları xətti ilə dövlət büdcəsindən daxilolmaları qiymətləndirən zaman xüsusi ilə bir məqama diqqət yetirməliyik ki, artıq Azərbaycanda da ekosistemdə baş verən keyfiyyət dəyişikliklərinə uyğun olaraq, gömrük orqanlarının iqtisadi təhlükəsizliyin qorunmasındakı roluna xüsusi diqqət ayrılır. Bu, təbii ki, fiskal öhdəliklərlə müqayisədə gömrük orqanlarının funksional olaraq iqtisadi təhlükəsizlikdəki rolunun artmasına gətirib çıxaracaq.

Qeyri-neft-qaz sektoru üzrə vergi, tədiyyə növlərinə, yəni bu maddələr üzrə diqqət yetirsək, burada diqqətçəkən məqamlardan biri qeyri-neft-qaz sektorunda mənfəət vergisi üzrə proqnoza 5,3 faiz az əməl edilməsidir. Yəni praktik olaraq, bu maddə birbaşa vergi maddəsidir və birbaşa vergi maddəsi üzrə azalmanın olması ayrıca qiymətləndirilməlidir. Çünki praktik olaraq, xüsusən də mövcud iqtisadi siyasət dolayı vergilərdən daha çox, birbaşa vergilərin payının artırılmasına, xüsusən də mənfəət və digər vergilər, tədiyyə növləri üzrə daha çox vəsaitin büdcəyə daxil olmasına nail olmaqdan ibarətdir.

Biz sənədi daxil olunan mənbələr, yəni gəlir mənbələri, maddələr üzrə qiymətləndirən zaman diqqətçəkən məqamlardan biri proqnozlarda kənarlaşmaların və artımların olmasıdır. Təbii ki, artımların proqnozlar üzrə daha çox olması müsbət məqamdır. Çünki bu, dövlət büdcəsinə daha çox vəsaitin daxil olmasına imkan yaradır. Amma bəzi hallarda, məsələn, torpaqların icarəyə və idarəetməyə verilməsi üzrə daxil olan vəsaitin həcmi 36,8 faiz, büdcə təşkilatlarının ödənişi xidmətlərindən əldə edilən vəsaitin həcmi 24 faiz, sair daxilolmalardan büdcəyə daxil olan vəsaitin həcmi isə

45,5 faiz çox olub. Qeyd etdiyimiz kimi, daha çox vəsaitin büdcəyə daxil olması müsbət məqamdır, amma bütün hallarda daha geniş kənarlaşmanın olması öncədən proqnozlaşma mexanizminə və metodlara yenidən baxılmasını gündəmə gətirir.

Xərclər maddəsi üzrə, təbii ki, biz xüsusən 2025-ci ildə 5-ci sosial paketin icrasını qeyd etməliyik. Sosial maddə üzrə ayrılan vəsaitlərin həcmi və eləcə də cənab Prezidentin rəhbərliyi ilə 5-ci sosial paketin icra olunması 2025-ci ildə 3 milyondan artıq vətəndaşımızın sosial paketdən faydalanmasına imkan yaratdı. Bu, büdcədən əlavə olaraq bu istiqamətdə 1,4 milyard manat vəsaitin ayrılması anlamına gəlib.

Bir sıra xərc maddələrinin icrasında, təbii ki, proqnozla müqayisədə azalmalar var, amma düşünürəm ki, bu, vəsaitlərin daha səmərəli istifadəsi ilə bağlıdır. Təbii, Maliyyə Nazirliyi tərəfindən xüsusən son 2 ildə bu istiqamətdə aparılan işləri təqdir edirik və düşünürük ki, növbəti, xüsusən 2026–2027-ci illərdə də proqnozlara uyğunluğun nəzərə alınması çox vacibdir.

Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsində Azərbaycanın möhkəm makroiqtisadi və makrofiskal dayanıqlığı təmin edilibdir. Bizim valyuta və qızıl ehtiyatlarımız ölkə ÜDM-ni üstələyən bir həcmdədir və bütün xarici şok və böhranlara baxmayaraq, ölkəmizin xarici borcu azalma tendensiyasındadır. Dövlət borcunun ÜDM-yə olan nisbəti isə həm Avropa, həm də neft ölkələrinin ortalamasından aşağıdır. 2025-ci

ildə ÜDM-nin proqnoz və fakt məbləğləri, demək olar ki, üst-üstə düşür, qanun layihəsi və illik hesabatın qanunvericiliyə uyğunluğu da, əsasən, düzgün olmuşdur.

2025-ci ilin dövlət büdcəsi ilə bağlı iki məqama toxunmaq istəyirəm və ikinci oxunuşun tələblərinə uyğun olaraq da təkliflərim var.

Birinci məsələ. Hesablama Palatasının dövlət büdcəsinin icrasına verdiyi rəyin 3.2.6-cı bəndində qeyd olunmuşdur ki, 600 milyon manat dövlət vəsaiti 2025-ci ilin dövlət büdcəsində formal olaraq icra olunmuş kimi görünsə də, 2025-ci ildə faktiki xərclənməmiş və 2026-cı ilə ötürülmüşdür. Bu isə kassa icraatı anlayışı ilə uyğunsuzluq təşkil edir. Ümid edirəm ki, hazırda ölkəmizdə maliyyə intizamı sahəsində aparılan genişmiqyaslı islahatlar çərçivəsində və növbəti ildən bu istiqamətdə də müvafiq tədbirlər görüləcəkdir.

İkincisi isə, hesabatdan görürük ki, hüquqi şəxslərin əmlak vergisi 36,9 milyon, dövlət rüsumlarında isə 57,8 milyon manat az icra qeydə alınıbdır. Təbii ki, hesabatda bunun səbəbləri izah edilir, lakin biz bu rəqəmləri müzakirə edərkən real iqtisadiyyatımızda mövcud olan nəhəng bir ölü kapital problemini həll etməklə bu gəlirləri dəfələrlə artırmaq mümkündür.

Bildiyiniz kimi, hazırda Azərbaycanda 500 mindən çox sənədsiz ev var və bu məsələnin həlli ilə bağlı müxtəlif vaxtlarda təşəbbüslər olsa da, sistemli və kompleks islahat lazımdır. Mülkiyyət hüququnun tanınması fundamental məsələdir. Bu gün sənədsiz evdə yaşayan vətəndaşlarımız qeydiyyata düşə bilmir, qeydiyyata düşə bilmədikləri üçün onların ərazi üzrə dövlət xidmətlərinə tam çıxışı olmur, evlərinə qaz çəkə bilmir, ailə başçısı vəfat edəndə vərəsəlik hüququ avtomatik tanınmır, övladına qanuni yolla keçə bilmir, boşanma zamanı mənzilə hüquqi iddia irəli sürə bilmir.

Sənədsiz evlər bu gün dəyərindən 20–30 faiz ucuz satılır, banklar tərəfindən girov kimi də qəbul edilmir, ona görə bəzi hallarda vətəndaş öz evini kapitala çevirib kiçik biznes də qura bilmir. Başa düşürəm ki, bu, çox mürəkkəb məsələdir və müxtəlif vaxtlarda mənim həmkarlarımın da müxtəlif çıxışları və yanaşmaları olmuşdur. Bu məsələnin məsuliyyəti də ağırdır, riskli tərəfləri də, həqiqətən, çoxdur. Ancaq sənədsiz evlərlə bağlı dünya təcrübəsi, misal üçün, qardaş Türkiyənin təcrübəsi mövcuddur. Türkiyədə İmar Barış Proqramı çərçivəsində 2018-ci ildə 7 milyondan çox sənədsiz evə dəyərinin 3 faizi miqdarında ilkin rüsum ödənməklə çıxarış alınıbdır. Biz də buna oxşar təcrübəni tətbiq edə bilərik.

Aydın məsələdir ki, nəqliyyat və enerji xətləri üzrə mühafizə zolaqlarında, riskli ərazilərdə, strateji torpaqlarda tikilmiş, o cümlədən mübahisəli evlər istisna olmaqla, sənədsiz evlərə çıxarış verilə bilər. Bu, iqtisadiyyatımıza, o cümlədən büdcəyə də milyardlarca manat həcmində əlavə və davamlı dəyər qata bilər. Ona görə, təklif edirəm ki, sənədsiz evlər üçün "Şəhərsalma və Memarlıq İli"ndə amnistiya elan edilsin, bununla bağlı xüsusi proqram hazırlansın və bu məsələ də mərhələli şəkildə öz həllini tapsın.

Çox sağ olun, hörmətli xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Samir Vəliyev. Buyurun.

**Samir Vəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Milli iqtisadiyyatımızın dayanıqlı və qabaqlayıcı inkişafının təmin edilməsi baxımından makroiqtisadi siyasətin ən mühüm komponentlərindən olan büdcə siyasətinin reallaşdırılmasının sistemli təhlili kontekstində müzakirə etdiyimiz 2025-ci ilin dövlət büdcəsinin icrası göstəriciləri ilə bağlı əminliklə

bildirmək olar ki, keçən ilin dövlət büdcəsinin icra göstəriciləri pozitiv makroiqtisadi gündəmin formalaşmasına istiqamətlənmişdir. Belə ki, büdcə prosesi çərçivəsində bütün prioritet istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər reallaşdırılmış, fiskal dayanıqlıq təmin edilmişdir. Eyni zamanda, vurğulanmalıdır ki, büdcə xərclərinin effektivliyinin daha da yüksəlməsi istiqamətində ötən il innovativ həllərə söykənən, o cümlədən institusional müstəviyə aid bir sıra önəmli qərarların qəbul edilməsi milli iqtisadiyyatımızda dayanıqlı müsbət effektlərə səbəb olmalıdır.

Bununla yanaşı, hesab edirəm, 2025-ci il üzrə dövlət büdcəsinin icra edilməsi göstəricilərinin müvafiq parametrlər üzrə təhlili göstərir ki, dünya iqtisadiyyatında baş verən proseslərə qarşı büdcə mexanizmləri vasitəsi ilə müvafiq yanaşmaların tətbiqi həyata keçirilmişdir. Təbii ki, dünya iqtisadiyyatında formalaşmaqda olan çağırışlar, risklər ölkəmizin əsas makroiqtisadi göstəricilərində, o cümlədən büdcə prosesində də öz təsirlərini tapmalıdır. Ancaq bununla yanaşı, ölkədə həyata keçirilən büdcə siyasətinin milli iqtisadiyyatımızın qarşısında dayanan əsas hədəfləri, o cümlədən ölkə əhalisinin geniş kateqoriyalarının sosial rifahının daha da yaxşılaşdırılması prioritet olaraq əsas istiqamətlərdən birinə çevrilmiş və keçən il biz bunun mövcud olduğunun şahidi olduq.

2025-ci ilin dövlət büdcəsinin icra edilməsi prosesində daxilolmalar və xərclər seqmentləri üzrə artımlar, zənnimcə, büdcə imkanlarımızın genişlənməsinin indikatorudur. Qeyd edək ki, 2025-ci il dövlət büdcəsinin icrası zamanı müdafiə və milli təhlükəsizlik, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, sosial sahə və digər istiqamətlər üzrə büdcə prosesinin effektiv şəkildə reallaşması dövlətimizin imkanlarını daha da artırmışdır. Bununla yanaşı, ölkə iqtisadiyyatının şaxələndirilməsi

ilə bağlı hədəflər büdcə daxilolmalarında da öz əksini tapmışdır. Milli iqtisadiyyatımızda qeyri-neft sektorunun rolunun yüksəlməsi, fikrimcə, bunu göstərməkdədir.

Bütün bu uğurlarla yanaşı, eyni zamanda, bir sıra təkliflərin də irəli sürülməsini məqsədəuyğun hesab edirəm. Birinci növbədə, hesab edirəm ki, dövlət büdcəsi vəsaitinin təyinatı üzrə və səmərəli istifadəsinə nəzarətin gücləndirilməsi bu gün çox vacibdir. Həmçinin:

- vergi və gömrük daxilolmalarının artırılması üçün kölgə iqtisadiyyatına qarşı tədbirlərin genişləndirilməsi;

- təhsil, səhiyyə və sosial müdafiə sahələrinə ayrılan vəsaitlərin nəticə yönümlü istifadəsinin təmin edilməsi;

- infrastruktur və regional inkişaf layihələrinin icrasında şəffaflığın artırılması;

- dövlət satınalmalarında rəqəmsallaşmanın genişləndirilməsi və korrupsiya risklərinin azaldılması;

- qeyri-neft sektorunun inkişafına yönəlmiş investisiyaların artırılması.

Bütövlükdə, nitqimin sonunda qeyd etmək istəyirəm, aparılmış sistemli təhlillər onu bildirməyə əsas verir ki, 2025-ci ilin dövlət büdcəsinin icrası prosesi iqtisadiyyatımızın dayanıqlı inkişafına xidmət etmişdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bu məsələ ilə bağlı sonuncu çıxış. Soltan Məmmədov. Buyurun.

**Soltan Məmmədov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və hörmətli media nümayəndələri. Dünyada hökm sürən iqtisadi təlatümlər, gərginliklər və qeyri-müəyyənliklər fonunda Azərbaycan 2025-ci ildə də öz iqtisadi dayanıqlılığını və inkişaf dinamikasını qoruyub saxlamışdır. Belə ki,

2025-ci il üçün dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş proqnoza qarşı 2,2 faiz çox, ümumi daxili məhsul real ifadədə 1,4 faiz artmış, sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 39,5 faizi həcmində icra olunmuşdur, bu da 2024-cü illə müqayisədə 4,1 faiz çoxdur.

Xüsusi olaraq vurğulamaq istərdim ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2025-ci ilin dövlət büdcəsindən 4,5 milyard manat vəsait ayrılmışdır. Qeyd etdiyim bu göstəricilər bir daha sübut edir ki, 2025-ci ilin dövlət büdcəsinin icrası uğurla həyata keçirilmiş, qarşıya qoyulmuş sosial hədəflərə nail olunmuşdur. Əlbəttə, bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və praqmatik daxili siyasətin, çevik idarəetmə modelinin və iqtisadi islahatların məntiqi nəticəsidir.

Sosialyönümlü dövlət siyasətimizin prioritet istiqamətlərindən biri olan səhiyyə sahəsində icbari tibbi sığorta sisteminin uğurlu tətbiqi öz müsbət nəticələrini verməkdədir. Bu xüsusda bəzi məsələləri vurğulamaq istərdim. İcbari tibbi sığorta sistemi çərçivəsində xidmətlər zərfinin davamlı genişləndirilməsi, əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması və göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi önəmli məsələlərdir.

Eyni zamanda, düşünürəm ki, profilaktik tədbirlərin genişləndirilməsinə və ilkin səhiyyə xidmətləri sisteminin gücləndirilməsinə xüsusi önəm verilməlidir. Belə ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə xüsusi ilə COVID19 pandemiyasından sonra vurğuladığım hər iki istiqamət üzrə xərclərin kifayət qədər artması qeydə alınmışdır. Avropa regionu ölkələrində ilkin səhiyyə xidmətlərinə ayrılan xərclərin ümumi səhiyyə xərclərindəki payı orta hesabla 15–20 faiz, profilaktik tədbirlərə ayrılan vəsaitlərin payı isə 3–7 faiz təşkil etmişdir. Profilaktik tədbirlərin və

ilkin səhiyyə sistemindəki xərclərin artımı ümumi səhiyyə xərclərinin optimallaşdırılmasına, səhiyyə sisteminin yüklənməsinin qarşısının alınmasına xidmət edir. Bu baxımdan, hesab edirəm ki, gələcəkdə bu istiqamətdə islahatların dərinləşdirilməsinə ehtiyac vardır.

Təqdim olunan hesabatda 2025-ci ilin dövlət büdcəsinin səhiyyə xərcləri bölməsi üzrə sümük iliyi transplantasiyası əməliyyatlarının icrası üçün 5 milyon manat vəsaitin ayrılması çox təqdirəlayiq haldır və bizləri sevindirir. Belə ki, bu gün irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün bu dəstəyə böyük ehtiyac vardır. Son illər sümük iliyi transplantasiyası əməliyyatlarının ölkə xaricində icra edilməsi ilə bərabər ölkə daxilində də həyata keçirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. İstər dövlət, istərsə də özəl tibb müəssisələrində bu əməliyyatların həyata keçirilməsi təqdirəlayiqdir. Bununla yanaşı, fikrimcə, kadr potensialının genişləndirilməsinə, sümük iliyi donor bankının yaradılmasına və bu yolla ölkə daxilində bu əməliyyatların yalnız birinci dərəcəli qohum donorları ilə məhdudlaşdırılmasının aradan qaldırılmasına ehtiyac vardır.

Bundan başqa, səhiyyə sahəsində illər ərzində uğurla həyata keçirilən dövlət proqramlarının müsbət nəticələrini nəzərə alaraq, irsi və nadir uşaq xəstəliklərinin müalicəsi üçün əlavə maliyyə vəsaitinin ayrılması istiqamətində işlərin davam etdirilməsinə ehtiyac olduğunu düşünürəm.

2025-ci il dövlət büdcəsinin icrası haqqında hesabatı dəstəkləyirəm və həmkarlarımı da təqdim olunan qanun layihəsini dəstəkləməyə çağırıram.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, 5 nəfər yazılmışdı, hamı çıxış etdi. Daha çıxış etmək istəyən yoxdur. Biz müzakirəni bitiririk və səsverməyə keçirik.

Bilirsiniz ki, biz ikinci oxunuşda maddələr üzrə səs veririk və bu qanun layihəsində 3 maddə var. Mən indi onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, diqqətlə münasibət bildirin. Buyurun, 1-ci maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə sonuncu maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi. İndi qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli Sahil müəllim, deyəsən, bu gün Sizin deməyə heç bir...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda gələn dəfə, üçüncü oxunuşda, çünki burada bir neçə təklif qaldırıldı və bizim həmkarlarımız çox vacib məsələlərə toxundular. Üçüncü oxunuşda əgər istəsəniz, xahiş edirəm, münasibət bildirərsiniz. Oldu, çox sağ olun. Biz sizi hörmətlə yola salırıq.

Hörmətli həmkarlar, biz isə işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti iki məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 2-ci məsələmiz Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Ona görə də, Azər müəllim, mən sözü yenə də Sizə verirəm. Buyurun, məlumat verin.

**Azər Badamov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Təqdim olunan qanun layihəsi birinci və ikinci oxunuşlarda müzakirə edilmişdir. Qısa olaraq bildirmək istəyirəm ki, layihə gömrük sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, gömrük inzibatçılığının səmərəliliyinin

artırılmasına və xarici iqtisadi fəaliyyət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılmasına xidmət edir. Təklif olunan dəyişikliklər gömrük prosedurlarının daha şəffaf və operativ həyata keçirilməsinə, gömrük nəzarəti və audit mexanizmlərinin təkmilləşdirilməsinə, həmçinin hüquqi müəyyənliyin artırılmasına imkan verəcək. Bu dəyişikliklərin tətbiqi sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə və xarici ticarət əlaqələrinin inkişafına müsbət təsir göstərəcəkdir.

Qanun layihəsinin ikinci oxunuşu zamanı hörmətli həmkarlar tərəfindən əlavə, təklif və ya irad səsləndirilməmişdir. Bunu nəzərə alaraq, qanun layihəsinin üçüncü oxunuşda olduğu kimi dəstəklənməsini və qəbul edilməsini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, heç kimin sualı, sözü yoxdur. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz 3-cü məsələdir. Bu məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bilirsiniz ki, bu, “Dövlət qulluğu haqqında” Qanunda dəyişiklik edilməsi

barədə qanun layihəsidir. Mən indi komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, bizə üçüncü oxunuşda məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bu məsələ Naxçıvan Muxtar Respublikasında cənab Prezidentin səlahiyyətli nümayəndəsinin statusu ilə bağlıdır. Hörmətli deputat həmkarlar çıxış edib dəstəkləyiblər, əlavə heç bir təklif olmayıb. Ona görə üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Sözü, sualı olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti, 4-cü məsələyə keçirik. “Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Bilirsiniz, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi bir oxunuşda qəbul ediləcək. Sadəcə, xatırladıram ki, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir. Qanun layihəsinə Beynəlxalq münasibətlər və

parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, Azərbaycan vətəndaşlarının diplomatik, xidməti və ümumvətəndaş pasportlarının viza tələblərindən azad edilməsi nəticəsində artıq yüzə yaxın, 95 ölkəyə sərbəst gediş-gəliş təmin edilmişdir. Təbii, bu siyahının içərisində diplomatik, xidməti və ümumvətəndaş pasportlarının hamısı bir yerdə nəzərdə tutulub. Ayrıca götürsək, 86 ölkəyə diplomatik və xidməti, 22 ölkəyə isə ümumvətəndaş pasportu ilə Azərbaycan vətəndaşı sərbəst gedib-gələ bilər. Bu gün diqqətinizə təqdim olunmuş “Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş” 2025-ci il mayın 4-də Kito şəhərində imzalanmışdır. Sazişdə hər iki dövlətin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşlarının səlahiyyətləri, yəni vizadan azad olunması məsələsi gündəmə gətirilmişdir. Burada bir məsələ gündəmə gətirilə bilər. Sənəddə diplomatik pasport anlayışı ilə bağlı heç bir problem yaranmır. Xidməti pasport Azərbaycan Respublikasının vətəndaşları üçündür, ancaq qanun layihəsində siz rəsmi pasport anlayışını da görürsünüz. Rəsmi pasport anlayışı, Ekvador Respublikasının rəsmi pasportlarından söhbət gedir.

Bu gün biz Latın Amerikası ilə münasibətləri yüksək səviyyədə təşkil edirik. Sadəcə, məlumat üçün deyə bilərəm ki, 11 Latın Amerikası dövlətinə – Argentina, Boliviya, Braziliya, Çili, Kolumbiya, Kosta-Rika, Kuba,

Uruqvay, Venesuela, Meksika, Dominikan Respublikasına diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi artıq təmin olunub. Ekvador da əlavə olunur. Biz öz xarici diplomatiyamızı genişləndiririk. Bu nöqteyi-nəzərdən qanun layihəsi Azərbaycanın milli maraqlarına tam uyğundur və komitəmiz onun müsbət həll olunması ilə bağlı Məclisə müraciət edir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

Hikmət Məmmədov yazılıb. Hikmət müəllim, buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. Əlbəttə ki, hər bir ölkənin vətəndaşlıq pasportunun reytinqi beynəlxalq münasibətlər sistemində qiymətləndirilərkən həm də onun daha çox ölkəyə vizasız gedib-gəlməsi ilə ölçülür. Ona görə mən düşünürəm ki, bu, həm də vətəndaşı olduğumuz şanlı Azərbaycanımızın pasportunun daha yüksək reytinqdə yer tutması üçün nəticələrə gətirib çıxaracaqdır.

Amma hörmətli xanım sədr, Azərbaycan Prezidentinin tarixi bir çağırışı var. Bu yaxınlarda o, Azərbaycan Respublikasının Milli Məclisində çıxışı zamanı səsləndirdi ki, "Bizim ailəmiz türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur". Azərbaycan Prezidentinin də ifadə etdiyi kimi, ilk növbədə xarici siyasətimizin əsas prioriteti türk dövlətləridir. Qardaş Türkmənistanla da bənzər bir anlaşmanın əldə olunmasına cəhd etmək çox yaxşı olar.

Bu günlərdə qardaş Türkmənistanda Azərbaycan Mədəniyyəti Günləri keçirildi və mən qayıtdıqdan sonra bir daha dərk etdim ki, Türkmənistan Xəzərin o tayındakı vətənimizdir, yəni bu qədər doğmadır. Məhtimqulu Fəraqi Azərbaycana gəlib, Azərbaycanda sufizmi, hürufizmi öyrənib,

qayıdıb böyük türkmən ədəbiyyatını, klassikasını yaradıbdır. Onun məşhur bir şeri var.

Nehri Ceyhun, Bəhri-Xəzər arası,
Çöl üstündə əsər yeli türkmənin.
Gül qönçəsi qara gözüm qarası,
Qara dağdan gələr seli türkmənin.

Doğrudan da, bu gün Türkmənistan çiçəklənir, inkişaf edir və eyni mədəniyyətin, eyni memarlıq mədəniyyətinin, ortaq dövlətdən gəldiyimiz mədəniyyətin ən bariz nümunələri sarı səhra içərisində ağ inci kimi parlayan Aşqabadın bütün küçələrini müxtəlif ornamentlərlə, həndəsi fiqurlarla, Oğuz xanın möhürü olan 8 guşəli ulduzla, Dədə Qorqud qopuzuna qoyulmuş heykəllə bəzəyir. Ona görə, məncə, hər bir azərbaycanlı üçün Türkmənistana gedib-gəlmək bir arzudur və hər bir türkmən üçün də Azərbaycana gedib-gəlmək bir arzudur.

Mədəniyyət günlərində bizim Mədəniyyət Nazirliyinin müxtəlif rəqs, incəsənət kollektivləri iştirak edirdilər. Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini o qədər yüksək səviyyədə təqdim etdilər ki, bu, insanda bir milli qurur hissi yaradırdı. Amma bundan daha çox Türkmənistan auditoriyasının, qardaş türkmənlərin bizim musiqiyə olan rəğbətləri, onu sevgi ilə qarşılamaları, səmimiyyətlə, ürəkdən alqışlamaları da başqa bir qürur hissi yaradırdı. Türkmənlərin “Kuştəpti” rəqsi əgər bir sufi ibadəti idisə, Azərbaycan Milli Xoreoqrafiya kollektivinin təqdim etdiyi “Qazağı” rəqsi də tam bir döyüş, tam bir qalibiyyət nümayişi idi. Orada bəlli oldu ki, bizim xoreoqrafların təqaüdə çıxma yaşı 65-dir. Ancaq biz bilirik ki, rəqs etmək nə qədər böyük cəldlik tələb edir, nə qədər çətin bir məsələdir. Elə oradaca bu kollektivin bəzi üzvləri dedilər ki: “Biz 40 yaşından sonra

artıq bu qabiliyyətimizi itiririk. Şübhəsiz ki, çəldlik, müxtəlif mürəkkəb konfiqurasiya yaradan hərəkətlər... Ancaq 40 yaşından sonra biz özümüzə yeni peşə seçməli oluruq”.

Mən düşünürəm ki, bizim Əmək və sosial siyasət komitəsində də, – çox hörmətli nazirimiz bayaq burada idi, – bu kateqoriya insanların əmək təqaüdünə, pensiyaya çıxma yaşlarının bir qədər aşağı salınması gələcəkdə nəzərdən keçirilərsə, yaxşı olar. Ona görə, hörmətli xanım sədr, mən bu layihəyə səs verəcəyəm.

Düşünürəm ki, qardaş ölkələrlə də bənzər vizasız gediş-gəliş üçün hüquqi əsasların yaradılması çox vacib olardı.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Odur ki, mən elə bəri başdan xahiş edirəm ki, çıxışlarınız birinci oxunuşun tələblərinə uyğun olsun.

Gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Onlar mahiyyətcə bir-birinə yaxındır. 5-

ci məsələ “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir, 6-cı məsələ isə “Dövlət qulluğu haqqında” və “Media haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, mən təklif edirəm, həmişə olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını bir yerdə dinləyək, müzakirəni də birgə aparaq, ancaq səsverməni ayrıca keçirək. İndi isə 5-ci məsələ ilə bağlı mən, Əli müəllim, Sizə söz vermək istəyirəm. Sizin komitənizin məsələsidir. Buyurun, məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Tamamilə haqlı vurğuladınız ki, bu məsələlər bir-biri ilə yaxındır, üzvi surətdə bağlıdır. Amma “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanunu Konstitusiya qanunu olduğuna görə biz ona ilkin baxırıq. Çünki media sahəsində fəaliyyət göstərən tənzimləyici qurumun səlahiyyətlərinin genişləndirilməsi ilə əlaqədar onun adı dəyişdirilir. O genişləndirilmənin mahiyyəti ilə bağlı hörmətli həmkarımız Zahid Oruc məlumat verəcək, amma ilk növbədə biz Konstitusiya qanununda onun adını dəyişdirməliyik. Belə ki, təklif olunur, “audiovizual” ifadəsi “Media və Yayım Şurası” ilə əvəz olunsun. Niyə bu Konstitusiya qanununda? Çünki Konstitusiya qanununa görə normativ xarakterli aktların siyahısında bu orqanın da qərarları mövcuddur.

O ki qaldı gündəliyin 6-cı məsələsinə, “Media haqqında” Qanunda edilən dəyişikliklərlə bağlı, “Dövlət qulluğu haqqında” Qanunda da uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

Hər iki layihə ilə bağlı komitəmizin rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

6-cı məsələyə isə İnsan hüquqları komitəsində baxılmışdır. İndi komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Komitədə məsələ müzakirə olunarkən müvafiq qurumların nümayəndələri də iştirak etmişdilər. Ona görə də 5 dəqiqə çərçivəsində məsələ ilə bağlı məlumat verməyə çalışacam.

Milli Məclisin müzakirəsinə çıxarılan yeni qanun layihəsi “Media haqqında” Qanunda dəyişiklikləri nəzərdə tutur. Birinci növbədə xatırladaq ki, 2022-ci ildə parlamentdə geniş ictimai müzakirələrdən keçən və çoxsaylı jurnalist birliklərinin, peşəkar ekspert və mütəxəssislərin müsbət rəyindən sonra qəbul edilən “Media haqqında” Qanun Vətən müharibəsindən sonra qalib milli mətbuatımızın yeni çağırışlar qarşısında daha da gücləndirilməsi, Zəfər ideologiyasının mediamız vasitəsi ilə gələcək nəsillərə ötürülməsi, qlobal informasiya axınları mühitində milli informasiya məkanının qorunması və sağlamlaşdırılmasında mühüm rol oynadı. Ötən müddət ərzində qanun çap, onlayn və audiovizual medianı vahid hüquqi çərçivədə birləşdirdi, ikitərəfli tənzimləmənin əsasını qoydu. İndi isə dövlətimiz daha böyük mənada informasiya siyasətini və idarəetmə sistemini daha da gücləndirmək qərarını verir.

Son illər müxtəlif beynəlxalq indekslərdə ölkəmiz əleyhinə sərt mövqelərin səbəbləri hamıya bəllidir. Azərbaycanın informasiya suverenliyinə zidd olan qanunsuz maliyyələşmə kanallarına qarşı hüquqi tədbirlərin həyata keçirilməsi milli informasiya məkanımızı xaricdən idarə etməyə və siyasi gündəmimizi formalaşdırmağa çalışan qüvvələrə zərbə oldu. Media çətiri altında nüfuz agentlərinin və hibrid informasiya terroru

həyata keçirən qüvvələrin mövqeləri xeyli zəiflədi. İndi yeni mərhələdə mediada vahid dövlət siyasətinin bir mərkəzdən idarə olunması qərara alınır.

Qanunvericiliyə edilən əsas dəyişiklik odur ki, mövcud Audiovizual Şura ilə Medianın İnkişafı Agentliyinin bazasında kollegial idarəetmə sisteminə malik vahid qurum – Media və Yayım Şurası yaradılır. Qərar fərqli institusional vəzifələrin və dövlət idarəçiliyində yeni mərhələyə keçidin zərurəti kimi qiymətləndirilə bilər.

Qarabağda və Şərqi Zəngəzurda yeni idarəetmə sistemi formalaşdırıldığı kimi, eyni prinsiplərlə milli informasiya məkanında da suverenlik, təhlükəsizlik və inkişaf prinsiplərinə əsaslanan yeni institusional təsisat yaradılır.

Dünyada kommunikasiya sistemləri arasında inteqrasiya nəticəsində çap, onlayn və audiovizual media arasındakı sərhədlər praktiki olaraq silinib. İndi bir media subyekti, eyni zamanda, həm internet saytı, həm "YouTube" kanalı, həm sosial media platforması, həm də ənənəvi efir yayımçısı ola bilir.

"Media haqqında" Qanunun yeni 43-cü maddəsinə görə Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı gələcəkdə şura olacaq. Qurumun yeni funksiyaları arasında sosial şəbəkə platformalarındakı məzmunların monitorinqi, dezinformasiyanın aşkarlanması üzrə aidiyyəti orqanların operativ əlaqələndirmə mexanizmlərinin qurulması, media subyektləri üçün iqtisadi dəstək tədbirləri, audiovizual məhsulların dövlət sifarişçisi kimi çıxış etməsi kimi mühüm yeniliklər nəzərdə tutulub.

Şura tənzimləmə funksiyası olan lisenziyalaşdırma, media reyestrinin aparılması və qanunvericiliyə nəzarətlə bərabər, həm də inkişaf, dəstək, ictimai rəyin öyrənilməsi və strateji informasiya siyasəti funksiyalarını vahid bir mərkəzdə birləşdirir. Beləliklə, media sahəsində qərarların qəbulu, onların icrası və nəticələrin təhlili arasında vaxt itkisi və idarəetmə boşluqları minimuma endirilir.

Təklif olunan model dünyanın aparıcı dövlətlərində artıq sınaqdan keçən bir yanaşmadır. Böyük Britaniyada “Ofcom” – Office Communication, Fransada “Arcom” abreviaturası ilə ifadə edilən yayımın tənzimlənməsi, rəqəmsal media mühitinin nizamlanması və istifadəçilərin maraqlarının qorunması funksiyasını vahid bir qurumda həyata keçirirlər. Almaniya, İtaliya, Kanada və Avstraliyada da belədir.

Bir mühüm statistika informasiya məkanımızın necə böyüdüyünü göstərir. 2025-ci ilin sonunda Dövlət Statistika Komitəsinin məlumatına görə Azərbaycan Respublikası ərazisində 92 audiovizual media subyekti fəaliyyət göstərir. Onlardan 47-si televiziya, 23-ü radio, 6-sı sifarişli yayım xidməti, 49-u retranslyasiya operatoru xidmətidir. Uzun illər Qarabağın informasiya məkanına daxil olmağımıza yol verilməyib. Bizim üçün qürurlu hadisədir ki, indi artıq orada Azərbaycan televiziya və radioları yayımlanır.

Dünyada informasiya məkanının strukturu əsaslı şəkildə dəyişib. İndi bir dövlətin informasiya məkanı yalnız televiziya, radio, qəzet və xəbər saytlarının məcmusu ilə məhdudlaşmır. Yeni informasiya arxitekturasına sosial şəbəkələr, video platformalar, mesajlaşma tətbiqləri, axtarış sistemləri, blogerlər, fərdi kontent yaradıcıları, – bunu vətəndaş jurnalistikası da adlandırırlar, – süni intellekt sistemləri aid olunur. Dövlət efir tezlikləri, rəsmi media subyektlərini tənzimləmə ilə yanaşı, artıq fəal

şəkildə müxtəlif vasitələrlə bu sferaya aid öz tənzimləmə addımlarını atmağa çalışır.

Düşünürük ki, Media və Yayım Şurasının yaradılması bu istiqamətdə həmin prosesi daha güclü əsaslarla qurmağa imkan verəcək. Çünki hər iki qurumun bazisində yetərincə böyük məlumat bazası formalaşır. Hesab edirik ki, bu əsnada yeni qanun efirin, ekranın, jurnalistin nüfuzunu artırmağa xidmət edəcək. Ona görə təşəkkür edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, yazılanlar var. Biz müzakirəyə keçirik. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təqdim olunan qanun layihəsi çox vacib və zəruri bir qanun layihəsidir. Biz hamımız bunu dəstəkləyirik və hər birimiz buna səs verəcəyik.

Qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti tərəfindən, Ümummilli Lider və cənab Prezident tərəfindən mediaya həmişə yüksək diqqət göstərilibdir. Əgər xatırlayırsınızsa, Ümummilli Lider hakimiyyətə gəldikdən sonra ilk olaraq mətbuatda senzuranı ləğv etdi. Ondan sonra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını bağışladı, dövlət hesabına ödədi. Cənab Prezident dünyanın heç bir ölkəsində görünməmiş addımlar atdı – media nümayəndələri üçün binalar tikdi, mənzillər verdi, qəzetlərə yardım göstərdi, mətbuat fondu yaratdı və bu fond vasitəsi ilə də qəzetlər maliyyələşdi, hər birinə maliyyə dəstəyi göstərildi. Yəni Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin mediaya daimi diqqəti danılmaz faktdır.

Əfsuslar olsun ki, bu gün medianın başqa-başqa cəhətləri də var. Əsasən, xaricdə oturan və bu gün Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin apardığı siyasəti, Azərbaycan Prezidentinin dünyada hər bir məsələyə ədalətli münasibətini qəbul etməyən dövlətlərin agentləri olanlar Azərbaycan dövləti, xalqı, ordusu haqqında, dövlət başçısı haqqında lazımsız məlumatlar paylaşırlar, lazımsız yazılar yazırlar. Mən hesab edirəm ki, biz qanunvericiliyimizdə bu məsələyə çox ciddi şəkildə fikir verməliyik.

Cənab Prezident 200 ildən artıq bir dövrə aid məsələni həll edib, yəni Qarabağ, işğaldan azad olunan ərazilər və sair. Şah İsmayıl Xətaidən bu tərəfə olan dövr ərzində bu ərazilər heç vaxt Azərbaycanın tərkibində olmayıb. Cənab Prezident bunu həll edib, Azərbaycan dövlətçiliyini, ərazi bütövlüyünü təmin elədi.

Bu gün bu məsələlərdən yazmaq əvəzinə, Ağdamın işğal olunmasında hakimiyyəti ittiham edirlər ki, bugünkü hakimiyyət guya Ağdamın işğalında iştirak edib. Füzulinin, Ağdamın işğalı ilə bağlı iki məhkəmə qərarı var. Məhkəmə qərarlarında da hər birinin adı çəkilibdir – Fəhmin Hacıyevdən, Rəhim Qazıyevdən tutmuş digərlərinə qədər ki necə Ağdamı, Xocalını təhvil verdilər, necə Kəlbəcəri təhvil verdilər, necə Şuşanı təhvil verdilər. Həmin vaxt hakimiyyətə gələndə Heydər Əliyevin ordusu yox idi. Heydər Əliyev tək gəlmişdi. Orduları geri çəkən AXCP– Müsavat idi, taborların hamısını geri çəkdilər. Şıxov taborunu kim geri çəkdi, bunlar hamımızın yaddaşındadır, hamımız bunları görmüşük və tarixi saxtalaşdırmaq olmaz.

Bir Ərəstun Oruclu var. Almaniyada oturub, Fridrix Nauman Fondunda işləyirdi, orada pul oğurlayırdı. Volfqan Yan vardı Şərqi Almaniyadan, ikisi bir yerdə. İndi mən Almaniyanın parlamentinə rəsmi məktub

göndərəcəyəm ki, araşdırın, alman vətəndaşının verdiyi vəsaitlər hara gedib. İndi oturub Almaniyada Azərbaycan dövlətinin əleyhinə düzlükdən, əməlisalehlikdən yazır. Pul oğrusu idi bu adam, bu adam fondlardan pul oğurlayırdı. İndi olub bloger, yazıçı, şair, bilmirəm, nə. Hesab edirəm ki, bu cür adamlara qarşı bizim mübarizəmiz ciddi olmalıdır və biz bu işi, mübarizəni aparmalıyıq.

Bir daha təkrar edirəm ki, bugünkü qədər Azərbaycanın ərazi bütövlüyü təmin olunmayıb və bunu da həll edən müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevdir. Hamımız onun sadiq əsgəriyik və onun sadiq əsgəri kimi də bu işə hazırıq.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Təqdim olunan qanun layihəsini, ümumilikdə, müsbət qiymətləndirir və dəstəkləyirəm.

İnanıram ki, Media və Yayım Şurasının səlahiyyətlərinin dövrün tələblərinə uyğunlaşdırılması media sahəsində idarəetmənin daha sistemli qurulmasına xidmət edəcəkdir.

Xüsusi ilə qeyd etmək istəyirəm ki, dövlət son illərdə media sektoruna ciddi dəstək göstərib, media subyektlərinin bir sıra vergilərdən azad edilməsi də çox düzgün qərar olub. Bunun məqsədi media qurumlarının iqtisadi cəhətdən ayaq üstə durmasına, yalnız maliyyə çətinlikləri ilə mübarizə aparmasına deyil, keyfiyyətli jurnalistikaya daha çox fikir, diqqət ayrılmasına imkan yaratmaq olub. Bu addımı da yüksək qiymətləndirirəm.

Bununla bərabər, düşünürəm ki, artıq növbəti mərhələyə də keçməyin zamanıdır. Bu gün inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, müasir media yalnız reklam gəlirləri ilə yaşamır. Hərçənd bu sahədə də ciddi gəlirlər yoxdur və reklamlar bərabər və ədalətli şəkildə də bölünmür. Dünyanın aparıcı media qurumları podkastlar, sənədli filmlər, rəqəmsal platformalar üçün xüsusi məzmun, analitik hesabatlar, ödənişli abunə sistemləri, təlim proqramları, tədbirlər, multimedia məhsulları və müxtəlif rəqəmsal xidmətlər istehsal etməklə gəlirlərini şaxələndirirlər. Məhz bu model onların iqtisadi müstəqilliyini gücləndirir. Məsələn, “The New York Times” rəqəmsal abunə və audio məhsullarından, “BBC Studios” proqram və format satışından, “Financial Times” isə analitik xidmətlər və korporativ abunəçilərdən əhəmiyyətli gəlir əldə edir. Bir çox Avropa ölkələrində media qurumlarına innovativ biznes modellərinin qurulması üçün xüsusi təlim və mentorluq proqramları təşkil olunur. Ona görə də qanunun həyata keçirilməsi mərhələsində Media və Yayım Şurasının əsas istiqamətlərindən biri də məhz bu olmalıdır.

Ölkənin bütün media subyektləri üçün beynəlxalq ekspertlərin iştirakı ilə sistemli təlimlər keçirilə, media menecerlərinə yeni biznes modelləri, rəqəmsal məhsulların hazırlanması, süni intellektin tətbiqi, müəllif hüquqlarının kommersiyalaşdırılması və beynəlxalq bazarlara çıxış imkanları öyrədilə bilər. Məqsəd yalnız mediaya dəstək vermək deyil, medianı dayanıqlı və iqtisadi baxımdan güclü etmək olmalıdır. Güclü iqtisadi əsaslara malik media həm daha peşəkar olur, həm də cəmiyyətə daha keyfiyyətli xidmət göstərir.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Sevil Mikayılova. Buyurun.

**Sevil Mikayılova.** Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr, millət vəkilləri və media nümayəndələri. “Media haqqında” Qanunda təklif edilən dəyişikliklər Azərbaycanda media sahəsinin institusional əsaslarının daha da təkmilləşdirilməsinə, normativ bazanın müasirləşdirilməsinə və idarəetmə mexanizmlərinin daha çevik və effektiv model üzərində qurulmasına xidmət edir.

Müasir dövrdə qlobal informasiya məkanında baş verən sürətli transformasiyalar çap, onlayn və audiovizual medianı faktiki olaraq vahid fəaliyyət ortamına gətirib. Bu da media siyasətinə vahid və kompleks yanaşmanı zəruri edir. Bu kontekstdə informasiya sisteminin əsas sütunu olan mediaya münasibətdə bütöv və koordinasiyalı idarəetmə mexanizminin formalaşdırılması xüsusi aktuallıq kəsb edib.

Təklif olunan dəyişikliklər vahid səlahiyyətli dövlət orqanının – Media və Yayım Şurasının yaradılmasını nəzərdə tutur. Bu günə kimi kifayət qədər uğurlu fəaliyyət göstərən iki qurumun birləşməsi ilə şuranın yaradılması mütərəqqi irəliləyişdir və sektorun effektiv idarə olunmasını təmin edəcək. Xüsusi ilə qeyd etmək istəyirəm ki, qurum kollegial idarəetmə modeli əsasında fəaliyyət göstərərək qərarların daha balanslı, şəffaf, institusional, məsuliyyət prinsiplərinə uyğun şəkildə qəbul edilməsinə imkan yaradacaq. Bu, heç şübhəsiz, medianın müstəqilliyinin qorunması baxımından zəruridir, lakin eyni zamanda, ictimai etimadın möhkəmləndirilməsinə xidmət edən mühüm demokratik mexanizm kimi çıxış edir.

Şuranın əsas fəaliyyət istiqamətlərindən biri media və yayım sayəsində qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarətin həyata

keçirilməsi olacaq. Bu yanaşma media mühitində vahid qaydaların tətbiqinin effektivliyini artırmağa, hüquqi qeyri-müəyyənliklərin aradan qaldırılmasına və bütün iştirakçılar üçün bərabər fəaliyyət şəraitinin yaradılmasına xidmət edir.

Şuranın mühüm vəzifələrindən biri də media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsidir.

Müasir dövrdə media qurumlarının effektiv fəaliyyəti həm də onların iqtisadi dayanıqlığı ilə birbaşa bağlıdır. Bu istiqamətdə atılacaq addımlar media subyektlərinin müxtəlif maliyyə risklərindən daha az asılı olmasına, uzunmüddətli inkişaf strategiyaları qurmasına şərait yarada bilər.

Şuranın media subyektlərinin fəaliyyəti ilə bağlı təhlillər aparması və ictimai rəyin öyrənilməsini təşkil etməsi də diqqətəlayiq istiqamətlərdəndir. Media siyasətinin effektivliyi yalnız normativ qərarlarla deyil, real vəziyyətin daimi və davamlı monitorinqi və cəmiyyətin gözləntilərinin nəzərə alınması ilə sıx bağlıdır.

Media sektorunda inkişaf tendensiyalarının vaxtında müəyyən edilməsi operativ qərar qəbuletməni daha da optimallaşdırır. Eyni zamanda, “Reklam haqqında” Qanuna uyğun olaraq, şuraya sosial reklamların sifariş verilməsi səlahiyyətlərinin verilməsi ictimai əhəmiyyətli mesajların daha geniş auditoriyaya çatdırılması baxımından mühüm imkan yaradır. Çünki sosial reklamlar maarifləndirmə, ictimai məsuliyyətin artırılması və cəmiyyət üçün vacib mövzuların gündəmdə saxlanılması baxımından təsirli vasitələrdən biridir.

Bu dəyişikliklər həm də beynəlxalq təcrübədə müşahidə olunan mütərəqqi idarəetmə modellərinin nəzərə alınması baxımından mühüm

əhəmiyyət daşıyır. Müasir media siyasətində çeviklik, koordinasiya və hüquqi müəyyənlik əsas prinsiplər kimi çıxış edir və təqdim olunan layihə də məhz bu prinsiplərə əsaslanır. Nəticə etibarı ilə “Media haqqında” Qanunda təklif edilən dəyişikliklər yalnız hüquqi və institusional yenilənmə deyil, həm də Azərbaycanın informasiya siyasətinin daha sistemli, daha müasir və daha effektiv mərhələyə keçidini təmin edən vacib addım kimi qiymətləndirilməlidir.

Layihəni dəstəkləyirəm və həmkarlarımı da səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Gündəlikdəki məsələlərlə bağlı hörmətli Əli Hüseynli də, Zahid Oruc da ətraflı danışdılar. Mən çalışacam, yetərincə qısa danışım. Əsasən, bu dəyişikliyin mahiyyətinin, sadəcə, dövlətin media siyasətini həyata keçirən qurumun daha effektli fəaliyyəti ilə bağlı olmadığını, həm də bütövlükdə, mediada baş verən prosesin nəticəsi olaraq meydana çıxdığını izah edim. Bu proses media konvergensiyası prosesi adlandırılır.

Biz artıq özümüz də, hətta media istehlakçıları da açıq-aydın görürlər ki, televiziyalarla, radiolarla çap mediası arasında sərhədlər silinir. Rəqəmsal texnologiyanın tətbiqi ona aparıb çıxarıb ki, bu gün jurnalist həm reportaj hazırlayır, həm məqalə yazır, həm də bəzən hətta video sıralanmanı da özü edir, əgər, doğrudan da, bacarıqlıdırsa. Bu proses, sadəcə, belə dəyək, bu sahədə baş vermir, yaradıcılıq müstəvisində də, struktur fəlsəfəsində də konvergensiya özünü göstərir. Az öncə qeyd etdim bu yaradıcılıqda, strukturda isə biz görürük ki, əvvəlki ənənəvi qəzet redaksiyalarının, radio və televiziya şirkətlərinin yerinə media holdinqləri

yaradılıb. Yəni mən ona görə də bunu konvergensiyanın birbaşa nəticəsi kimi qiymətləndirirəm.

Eyni zamanda, burada hörmətli həmkarlar dezinformasiya, onunla mübarizə ilə bağlı da öz fikirlərini bildirdilər. Mən onları tam dəstəkləyirəm. Sadəcə, bir məsələni diqqətə çatdırmaq istəyirəm. Bilirsiniz, dinlə bağlı bəzən niyə yaradıldığı bəlli olmayan və nə dərəcədə doğru olduğu bilinməyən təfsirlərin, hədislərin bolluğu cəhalətə, xurafata yol açdığı kimi, informasiya bolluğu da, sadəcə, informasiya xaosu doğurmur, həm də “informasiya cəhaləti” doğurur. Bu yöndə ən effektli mübarizələrdən biri, – təbii ki, bu inzibati resursların işə salınması, gələcəkdə, yəqin, süni intellekt süzgəcləri də öz işlərini görəcək, – insanlarda media savadlılığını artırmaq lazımdır.

Mən baxıram ki, bu digital, özünü qoruma indeksi ən yüksək olan ölkələrdən birində, Finlandiya qanunvericiliyində və digər ölkələrin qanunvericiliyində, məsələn, inkişaf etməkdə olan ölkələrdən Malayziyanın qanunvericiliyində bu media savadlılığı məsələsi media qanununda deyil. Düzdür, bizdə 2021-ci ildəki dəyişiklikdə bu, “Media haqqında” Qanuna salınanda termin artıq rəsmi olaraq öz əksini tapıb. Amma biz bu dezinformasiyaya qarşı effektli mübarizədən danışırıqsa, media savadlılığı haqqında ayrıca qanuna ehtiyac var. Uşaq bağçasından tutmuş məktəblərə qədər həmin Finlandiyada bu media savadlılığı qanunu, daha doğrusu, dərsləri keçirilir. Məsələn, hətta riyaziyyat dərsində belə data statistikasından necə faydalanmaq olar və data statistikasından faydalanarkən hansı manipulyasiyalara yol verilə bilər, bu, uşaqlara da öyrədilir. Malayziyada bu, böyüklərə də öyrədilir. Ona görə də, mənə elə

gəlir ki, artıq vahid bir platformada birləşdirilən bizim media qurumumuz bunu nəzərə almalıdır.

Mən bu aktı, bu dəyişikliyi dəstəkləyirəm və yeni quruma işində uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sahib müəllim.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media mənsubları. Müzakirə etdiyimiz qanun layihəsi media və yayım sahəsində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, informasiya təhlükəsizliyinin gücləndirilməsi və müasir çağırışlara uyğun institusional çərçivənin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Şübhəsiz ki, rəqəmsal transformasiya, sosial şəbəkələrin təsirinin artması, süni intellekt texnologiyalarının inkişafı və qlobal informasiya axınlarının sürətlənməsi dövlətin qarşısında yeni vəzifələr qoyur. Bu baxımdan qanun layihəsində nəzərdə tutulan dəyişikliklər müasir reallıqlardan irəli gələn zərurət kimi qiymətləndirilə bilər.

Layihənin əsaslandırılmasında, arayışda tamamilə haqlı olaraq  çap, onlayn və audiovizual media arasındakı sərhədlərin silinməsindən söz açılır. Media resursları arasındakı sərhədlər texnologiyanın gətirdiyi yeniliklərə uyğun olaraq silinir və bundan sonra da proses davam edəcək. Yəni bu o deməkdir ki, bu gün mövcud olan qəliblər, ölçü və standartlar 5 və ya 10 ildən sonra, bəlkə də daha tez yeniləri ilə əvəzlənəcək. Yalnız məzmun və onu ərsəyə gətirən yaradıcı insan amili dəyişməyəcək. Bu baxımdan bütün dəyişən formalarda öz mahiyyətini, funksionallığını qoruyub saxlayan yaradıcı insanın – peşəkar və yaradıcı jurnalistin,

jurnalistikanın qorunması, inkişaf etdirilməsi bundan sonra da prioritet istiqamətlərdən biri olmalıdır.

Bu gün ölkə mediası yalnız yerli bazarda fəaliyyət göstərən media qurumları ilə deyil, qlobal rəqəmsal platformalarla rəqabət aparır. Hazırda beynəlxalq platformalar reklam bazarının əhəmiyyətli hissəsinə sahiblənib. Halbuki informasiyanı hazırlayan, hadisə yerinə gedən, araşdırma aparan, müsahibə götürən, reportaj hazırlayan, ictimai maraqlara xidmət edən tərəf yerli media subyektləri və jurnalistlərdir. Bu baxımdan həm hüquqi, həm də motivasiya xarakterli addımlarla daxili reklam bazarının qorunması və inkişaf etdirilməsi təkcə iqtisadi faktor deyil, həm də informasiya təhlükəsizliyinin təmin edilməsi üçün başlıca amildir. Yəni reklam bazarının sosial şəbəkələr üzərindən xaricə axmasının qarşısının alınması həm hüquqi vasitələrlə, həm də digər stimullaşdırıcı islahatlar vasitəsi ilə alınmalıdır.

Bu gün media sahəsində bütün dünyada ən böyük problemlərdən biri peşəkar jurnalistikanın keyfiyyət böhranı ilə qarşı-qarşıya qalmasıdır. Araşdırma jurnalistikası əvvəlki təsir imkanlarını itirib. Bütövlükdə isə, jurnalistikanın janr və növləri, o cümlədən müsahibə, reportaj, icmal, yol qeydləri, resenziya, məqalə, bədii publisistika faktiki olaraq sıradan çıxmaqdadır. Artıq keyfiyyətli köşə yazıları, müsahibə və reportajlarla çox nadir hallarda qarşılaşmaq olur. İndi təkcə xəbər başlıqları deyil, sərhədləri pozulmuş janrlardan ibarət yazıların mətnləri də, təəssüf ki, bir-birinə bənzəyir. Xəbər çoxalır, fikir istehsalı azalır və yaxud əhəmiyyətini itirir.

Jurnalistikanın əsas vəzifəsi isə araşdırmaq, təhlil etmək, səbəb-nəticə əlaqələrini ortaya çıxarmaq, ictimai əhəmiyyət kəsb edən məsələləri gündəmə gətirmək, ictimai maraqları qorumaqdan ibarətdir. Peşəkar

jurnalistika yalnız operativlik və xəbər bolluğu meyarı ilə qiymətləndirilməməlidir. Peşəkar jurnalistika ilk növbədə keyfiyyət, etibarlılıq, araşdırma və ictimai məsuliyyət deməkdir.

Bu gün isə sürətli informasiya dövriyyəsi, şablonlaşma və texnoloji transformasiya fonunda fərdi üslubların, müəllif yanaşmalarının və dil zənginliyinin qorunması xüsusi əhəmiyyət kəsb edir. Çünki dili inkişaf etdirən məhz yaradıcı düşüncədir. Yaradıcı düşüncəni isə həm də peşəkar jurnalistika formalaşdırır.

Bu baxımdan ümid edirəm ki, yeni yaranan təsisat media subyektlərinin iqtisadi dayanıqlılığının təmin edilməsi, reklam bazarının qorunması və inkişaf etdirilməsi ilə bərabər, peşəkar jurnalistikanın iqtisadi əsaslarını, janr müxtəlifliyini, müəllif məktəblərini və dil mühitini qoruyan istiqamətə də diqqət ayıracaq, həmçinin media subyektləri ilə bərabər jurnalistlər üçün də ayrı-ayrı janrlar üzrə yazı və məzmun müsabiqələri ilə yanaşı, bir neçə ay, yaxud bir il davam edən layihələr elan etməklə mediada məzmun keyfiyyətinin artırılmasına töhfə verəcək.

Daha öncə də qeyd etdiyim kimi, texnologiya inkişaf etdikcə sərhədlər itir və bu proses zamanla daha geniş vüsət alacaq. Bu səbəbdən, bütün forma dəyişikliklərində öz klassik mahiyyətini və peşəkarlığını büruzə verməyi bacaran yaradıcı potensialı qorumaq, peşəkar, məsuliyyətli, ictimai maraqları qoruyan, etik normalara əməl edən jurnalistikanı inkişaf etdirmək də zəruridir.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elçin müəllim.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Media sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, tətbiq mexanizmlərinin gücləndirilməsi və beynəlxalq standartlara uyğunluğun artırılması – bütün bunlar günümüzün tələbləridir.

Media, kütləvi informasiya vasitələri cəmiyyətin inkişafında və idarə olunmasında əsas sütunlardan biridir. O, sadəcə, xəbər mənbəyi deyil, insanların dünyagörüşünü formalaşdıran, ictimai rəyi istiqamətləndirən və dövlət–vətəndaş münasibətlərində körpü rolu oynayan ən güclü vasitədir.

Medianın inkişafı Azərbaycan dövləti üçün milli informasiya təhlükəsizliyinin qorunması, dayanıqlığın təmin olunması, dövlət maraqlarının, xüsusi ilə tarixi qələbədən sonra reallaşan quruculuq işlərinin və regional siyasətin beynəlxalq müstəvidə təbliğ edilməsi və cəmiyyətin düzgün məlumatlandırılması baxımından strateji əhəmiyyət daşıyır.

Digər mühüm məsələ isə qeyd olunan sahədə institusional islahatların aparılmasıdır. Bu prosesin özü də artıq zərurətə çevrilir. Təqdim olunan qanun layihəsində Media və Yayım Şurasının yaradılması, həmçinin dövlət qulluğu haqqında və media haqqında qanunvericiliyin təkmilləşdirilməsi nəticə etibarı ilə idarəçiliyin optimallaşdırılmasına, rəqəmsal transformasiya və media subyektlərinin iqtisadi dayanıqlığının artırılmasına xidmət edir.

Bütün bunları nəzərə alaraq, “Dövlət qulluğu haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, hörmətli media nümayəndələri. Bu gün, doğrudan da, cəmiyyət və media üçün olduqca önəmli bir layihəni müzakirə edirik. “Media haqqında” Qanuna əlavə və dəyişikliklərin olunması, hesab edirəm ki, günün qarşıya qoyulmuş zəruri, vacib vəzifələrindən biridir.

Elektron media ilə çap mətbuatı və eyni zamanda, televiziyalarla radiolar arasında bu sərhədlərin aradan götürülməsi, vahid platforma ətrafında fəaliyyət göstərməsi, hesab edirəm ki, dövrün, günün tələbidir. Bir sıra ölkələrdə mətbuat artıq uzun müddətdir bu sistem ətrafında fəaliyyət göstərir. Əlbəttə ki, bu dəyişikliyin zəruri olmasının əsas məqsədlərindən biri, eyni zamanda, medianın iqtisadi imkanlarının genişlənməsi, medianın cəmiyyətə təsir imkanlarının vahid sistem ətrafında formalaşaraq fəaliyyətini daha düzgün qurmaqdan ibarətdir.

Burada hörmətli deputat həmkarım Siyavuş müəllim medianın inkişaf tendensiyasını qeyd etdi. Həqiqətən də, Azərbaycan mətbuatı son illər kifayət qədər uğurlu nailiyyətlər əldə edibdir. Azərbaycan mətbuatı, – çox gözəl xatırlayıram, – 1990-cı illərdə hansı vəziyyətdə idi və Ulu Öndərimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan mətbuatında nə qədər mühüm dəyişikliklərin baş verdiyinə, medianın inkişafına biz şahidlik etdik. Məhz Ulu Öndərimiz tərəfindən o illərdə senzuranın aradan qaldırılması, mütərəqqi qanunların qəbul olunması Azərbaycanda medianın hüquqi sistem əsasında formalaşmasını reallaşdırdı. Bu gün möhtərəm cənab Prezidentimiz, müzəffər Ali Baş

Komandan İlham Əliyev tərəfindən Azərbaycan mətbuatının inkişafı ilə bağlı çox mühüm qərarlar imzalanıb.

Azərbaycanda son bir neçə il bundan öncə qəbul olunmuş “Media haqqında” Qanun, hesab edirəm ki, dünya üçün kifayət qədər mütərəqqi qanunlardan biridir. Medianın inkişafı, peşəkarlığının artırılması, yeni trendlərin ərsəyə gəlməsi, bütövlükdə, elektron media quruluşlarının inkişafı ilə bağlı çox vacib qərarlar olubdur. Bunlar, doğrudan da, Azərbaycan mətbuatının son illərdə əldə etdiyi çox uğurlu nailiyyətlərdir. O baxımdan, düşünürəm ki, bu hədəflərə çatmaq üçün bu dəyişikliyin də reallaşması günün tələbidir və dünyada gedən bu proseslər, eyni zamanda, Azərbaycanda bütün sahələrdə uğurlu nailiyyətlərin əldə olunması media sahəsində də öz əksini tapmalıdır.

Burada deyildi, media sahəsində də münbit şəraitdən kifayət qədər istifadə halları olubdur, şəxsi həyata müdaxilə, ailə həyatına müdaxilə, bir sıra problemlər mövcud olubdur. Əlbəttə, burada medianın, təbii ki, peşəkarlığının artırılması zəruri addımlardan biridir. Media savadlılığı ilə bağlı qeyd olundu və bu layihələrin həyata keçirilməsi də çox vacibdir. Adi, xırda informasiyanın cəmiyyətə yanlış ötürülməsi kifayət qədər problemlərin yaranmasına gətirib çıxarır və cəmiyyətdə çaşqınlıq yaradır. O baxımdan media savadlılığının reallaşması, bununla bağlı müvafiq təlimlərin keçirilməsi də gündəmdə olan məsələlərdən olmalıdır. Yalan informasiyanın nədən ibarət olduğunu, düzgünün nədən ibarət olduğunu oxucu aydın, açıq şəkildə görməlidir. Bununla bağlı, düşünürəm ki, yenidən formalaşdırılmış bu qurum qarşıya qoyulmuş hədəflərə yüksək səviyyədə çatacaq və bu problemlərin də aradan qaldırılmasında öz töhfələrini verəcəkdir.

Mən də hesab edirəm ki, bu dəyişikliyə hamımız birmənalı öz səsimizi verməliyik və dəstəkləməliyik. Bu dəyişikliklər, dediyim kimi, mediada optimallaşmanın və medianın müasir çağırışlara cavab verməsinin əsas şərtlərindən biridir.

Dəstəkləyirəm, səs verirəm və deputat həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media təmsilçiləri. Bu gün, həqiqətən də, olduqca vacib bir qanun layihəsini müzakirə edirik. Çünki Azərbaycanda müxtəlif sahələrdə çox mühüm struktur islahatları həyata keçirilir. O cümlədən də yeni dövrün tələblərinə cavab verəcək islahatların həm də media sahəsində həyata keçirilməsi olduqca vacibdir.

Yeni bir struktur yaradılır və bu yeni strukturun qarşısında da məhz yeni dövrün tələblərinə uyğun olaraq vəzifələr müəyyənləşməkdədir. Mən də bəri başdan bu qanun layihəsinə səs verəcəyimi əminliklə bildirmək istəyirəm. Amma bununla yanaşı, bir neçə məqama toxunmaq istəyirəm. Çünki biz komitədə də geniş müzakirə etdik və komitənin formatına uyğun olaraq, bəzi fikirlərimi səsləndirdim.

Amma burada xüsusi ilə vurğulamaq istəyirəm ki, rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir şəraitdə sosial medianın sərhədlərinin silinməsi artıq açıq-aşkar özünü göstərməkdədir və bu da mütləq yeni bir qaydanın, yeni icra mexanizminin tətbiq olunmasını zəruri edir. Burada qərarların çevik şəkildə qəbul edilməsi, kollegial

mexanizmlərin işə salınması  tez, operativ qaydada bəzi yeniliklərin tətbiq olunması baxımından olduqca vacibdir.

Eyni zamanda, mən düşünürəm ki, bizim yaradacağımız yeni strukturun qarşısında duran bir sıra vəzifələr var. O vəzifələr arasında xüsusi ilə bizim audiovizual məhsulların hazırlanması ilə bağlı olan çox mühüm vəzifələr var. Bu barədə də mən ayrıca olaraq danışmaq istəyirəm. Çünki bildiyiniz kimi, bizdə, ümumiyyətlə, dünyanın müxtəlif ölkələrində tez-tez mədəni ekspansiya barədə danışırlar. Mədəni ekspansiya bu və ya digər formada bəzi hallarda ölkələri hətta müəyyən təhlükə altına ala bilir. Bu baxımdan mən düşünürəm, Azərbaycanda da media sahəsində bu islahatların həyata keçirilməsi, bir tərəfdən, şübhəsiz ki, milli-mədəni irsin qorunması və geniş şəkildə təbliğ olunması baxımından da çox vacib bir fəaliyyət spektrini müəyyənləşdirəcək. Amma eyni zamanda da, dünyanın bir çox dövlətlərinin əziyyət çəkdiyi o mədəni ekspansiya fenomenindən həm də bizim cəmiyyəti qorumaq və buna qarşı immunitetini daha da gücləndirmək istiqamətində də zəruri addımlar atılacaqdır. Amma bu necə olur? Bu, xüsusi ilə də mədəni inteqrasiya kontekstində müəyyən uğurlu bir strategiyanın həyata keçirilməsini vacib edir. Bunun üçün, təbii ki, həmin audiovizual məhsullar da bu rəqabətə dözümlü olmalıdır.

Yeri gəlmişkən, Azərbaycanda çoxsaylı nümunələr var. Bunu xüsusi ilə qeyd etmək istəyirəm. Bu, ilk əvvəl, Bakı Media Mərkəzi tərəfindən hazırlanan vizual məhsullardır. Misal üçün, “Tağıyev” bədii filmi var ki, mən bir neçə gün ərzində ayrı-ayrı gənclərin təmsil olunduğu tədbirlərdə iştirak etdim. Orada gənclər arasında gedən bu müzakirəyə də diqqət yetirdim ki, hamı birmənalı şəkildə “Tağıyev” filmi barədə danışır. Kinoteatrlara üz tutmalarının və müəyyən təkliflərin də irəli sürüldüyünün şahidi oldum. Bu

onu göstərdi ki, bizim gənclərdə buna xüsusi bir maraq var. Burada həmkarlar sosial sifariş barədə danışdılar. Mən düşünürəm ki, bəli, bu həm də sosial sifarişdir. Bu kimi məhsulların sayının artırılması bizim bu mədəni ekspansiyaya qarşı olan immunitetimizi həm də bir qədər gücləndirmiş olar.

Digər bir vacib istiqamət barədə də danışmaq istəyirəm. Bu da bizim animasiyalar və cizgi filmləri ilə bağlı olan məsələdir. Düşünürəm ki, gələcəkdə Media Yayım Şurası həm də bu məsələyə xüsusi diqqət yetirər. Bununla da bağlı müsbət nümunələrimiz var. Misal üçün, “Virtual Qarabağ” Mərkəzi var, onun istehsal etdiyi istər Qərbi Azərbaycan, Qarabağ, istərsə də digər mövzularda olan layihələri, animasiyaları, cizgi filmləri var ki, geniş populyarlıq qazanmışdı və on minlərcə baxış sayını müxtəlif “YouTube” kanalları üzərindən qazanan məhsullar olmuşdur. Biz bu istiqamətdə fəaliyyətimizi inkişaf etdirməklə, şübhəsiz ki, çox güclü bir inkişaf strategiyasını da müəyyənləşdirmiş olarıq və yaxşı nəticələr əldə edərik.

Son olaraq mən burada hörmətli həmkarlarımın dilə gətirdiyi media peşəkarlığı və media savadlılığı məsələsinə toxunmaq istəyirəm. Düşünürəm ki, yeni yaradılacaq struktur bu istiqamətdə də öz fəaliyyətini geniş şəkildə qura bilər. Nəticə etibarı ilə biz bu günə qədər qazandığımız uğurlar əsasında da tamamilə yeni bir inkişaf strategiyasını məhz yeni yaradılacaq qurumun fəaliyyəti ilə də müəyyənləşdirmiş olarıq. Bu baxımdan mən bu quruma böyük uğurlar arzulayıram və qanun layihəsinə də səs verirəm.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Rəşad Mahmudov. Buyurun, Rəşad müəllim.

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Son dövrlərdə bizə müraciət edən vətəndaşların bir qismi xarici ölkələrdə, xüsusi ilə Rusiya Federasiyasında tibb təhsili almış, klinik ordinatura, yəni rezidentura keçmiş və yüksək ixtisaslaşmış həkimlərdir. Bu şəxslər Azərbaycan Respublikasının vətəndaşı olaraq ölkəmizin tibb təhsili sistemindən məzun olmuş və ya daha sonra beynəlxalq səviyyədə əlavə ixtisaslaşma mərhələsi keçmiş mütəxəssislərdir. Bu mövzu bilavasitə “Normativ hüquqi aktlar haqqında” bu gün müzakirəyə çıxarılan Konstitusiya Qanunu ilə əlaqəli olduğuna görə bunu dilə gətirirəm. Hazırda onların ölkəyə qayıtdıqdan sonra peşə fəaliyyətinə başlaması zamanı diplomlarının tanınması, nostrifikasiya və ixtisaslarının tanınması prosesi ilə bağlı ciddi qeyri-müəyyənlik mövcuddur.

Müraciətlərdən görünür ki, 2011-ci ildən əvvəl və sonra formalaşmış mexanizmlər arasında hüquqi və prosedur baxımdan fərqliliklər yaranmış və 2023-cü ildən etibarən isə bu sahədə faktiki olaraq vahid və aydın tətbiq mexanizminin olmaması müşahidə edilir. Nəticədə, bir tərəfdən, yüzlərcə azərbaycanlı həkim xaricdə yüksək səviyyəli klinik təhsil alır, digər tərəfdən isə, ölkəyə qayıtdıqda onların ixtisaslarının tanınması prosesi ya uzanır, ya da hüquqi əsasları tam aydın olmayan komissiya qərarlarından asılı vəziyyətə düşür. Bu isə yalnız inzibati bir məsələ deyil, bu, həm də insan kapitalının səmərəli istifadəsi, səhiyyə sistemində kadr çatışmazlığı və ən önəmlisi, peşəkarların ölkəyə qayıdış motivasiyası ilə bağlı strateji məsələdir.

Dünən mənə müraciət edən Moskvada təhsilini Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla tamamlamış, 2 azyaşlı övladı olan 30 yaşlı bir həkim xanımın və ananın rəsmi müraciətindən sonra yaşadığım bir

məqamı xüsusi ilə diqqətinizə çatdırmaq istəyirəm. Bütün hüquqi prosedurlara baxmayaraq, məktəbi ən yüksək qiymətlərlə, universiteti qırmızı diplomla bitirən, Rusiyada ən tanınmış bir göz mərkəzində təhsil almış, orada işləmə imkanı əldə edən və ailə vəziyyəti ilə bağlı ölkəyə qayıdıb bir il işsiz qalan bir qadına, sadəcə, sonunda bir cümlə deyə bildim ki, səni anlayıram. Əmin olun ki, həmin anda bütün bu illərin yorğunluğu, gözləntiləri və ümidsizliklə ümid arasında qalan o anları ifadə edən bir mənzərə yarandı, iki uşaq anası olan bu güclü qadının gözləri doldu. Bir daha düşünürəm, bu bizi düşündürməlidir ki, bu, sadəcə, bir hekayə deyil. Bu, bəzən sistemlərin və icra strukturlarının insan üzərində yaratdığı bilinmədən, fərq edilmədən gecikmələrin, qeyri-müəyyənliklərin, bəzən də izah olunmayan prosedur boşluqlarının real həyatdakı təsiridir.

Biz anlamalıyıq ki, xarici ölkələrdə klinik ordinatura keçmiş həkimlər əlavə olaraq illərlə praktik təcrübə qazanmış mütəxəssislərdir. Onların yenidən uzunmüddətli rezidentura sisteminə cəlb edilməsi, yenidən “get imtahan ver”, yenidən “rezidentura imtahanını qazan”, 30 yaşında bir insana bunları demək, əlbəttə ki, bəzən praktik reallıqla uyğun gəlməyən nəticələr yaradır. Eyni zamanda, təbii ki, prosesdən sui-istifadə hallarının qarşısının alınması vacibdir. Hər bir dövlət bunun üçün lazım olan tədbirləri görməlidir. Lakin bu, ümumilikdə, sistemin qapadılması deyil, əksinə, şəffaf, ölçülə bilən və hüquqi cəhətdən sabit nostrifikasiya mexanizminin yaradılması ilə təmin olunmalıdır. Bu gün bizə təqdim olunan vəziyyətdə isə bu sahədə ya normativ baza tamamlanmayıb, ya mövcud qaydalarda, praktik tətbiqdə ardıcıllıq yoxdur, ya da qərarvermə mexanizmi fərdi komissiya yanaşmasına həddən artıq bağlıdır. Hesab edirəm ki, bu sahədə islahatların əsas istiqaməti bu gün ölkədə aparılan səhiyyə islahatlarının

fəlsəfəsinə uyğun, sürətli bir şəkildə davam etdirilməlidir. Əks halda, bir tərəfdən, biz tibbi kadr çatışmazlığından danışacağıq, digər tərəfdən isə, hazır ixtisaslı mütəxəssislərin sistemə inteqrasiyası çətinləşəcək.

Sonda qeyd etmək istəyirəm, bunları deməkdə məqsəd, əlbəttə ki, nəzarətsizlik deyil, məqsəd ədalətli, şəffaf və proqnozlaşdırıla bilən sistemin daha effektiv bir şəkildə tətbiqidir. Bu, əlbəttə ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun bir şəkildə həyata keçirilməlidir.

Mən bir daha fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, düşünürəm, dilə gətirmiş olduğumuz bu məsələlər, sadəcə, insan taleləri deyil, yüzlərcə Azərbaycan gəncinin gələcəkdə yüksək motivasiya ilə Azərbaycan səhiyyə sistemində fəaliyyət göstərməsi, xaricdə olan azərbaycanlıların geri dönməsi üçün böyük bir imkan yaradacaq.

**Sədrlik edən.** Rəşad müəllim, çox sağ olun. Rəşad müəllim, Siz hansı məsələ ilə bağlı danışırdınız? 5-ci məsələ?

**Rəşad Mahmudov**. 5-ci məsələ.  Bilavasitə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu ilə əlaqəli.

**Sədrlik edən.** Əslində, aktual məsələ idi, ancaq bu qanun layihəsinə nə qədər aidiyyəti var idi, onu Əli müəllimlə sonra Siz danışarsınız. Oldu, çox sağ olun.

Bəhruz Məhərrəmov**.** Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox hörmətli sədr, əziz həmkarlar, "Dövlət qulluğu haqqında"  və "Media haqqında" qanunlarda təklif edilən dəyişiklik layihəsi media idarəçiliyi və ideoloji istiqamətdə çox mühüm və institusional xarakterli islahat mərhələsi başladır. Vahid strukturun yaradılması fəaliyyətdə çevikliyin və şəffaflığın daha etibarlı şəkildə təmini, heç

şübhəsiz ki, texniki tərəflərlə yanaşı, informasiya siyasətinə önəmli dönüş üçün ciddi zəmin hazırlayacaq.

Hörmətli həmkarlar, biz işğala, təcavüzə cənab İlham Əliyevin müzəffər liderliyində son qoyub mütləq qələbə qazanmışıq. Amma qarşıda daha ciddi bir vəzifə – qələbənin nəticələrinin qorunması və bu istiqamətdə Azərbaycan əleyhinə informasiya hücumlarının zərərsizləşdirilməsi vəzifəsi dayanır. Çünki çox mürəkkəb bir dövrə qədəm qoymuşuq, hətta dünyanın ən nəhəng güc mərkəzləri və nüvə dövlətlərinin daxili təhlükəsizlik arxitekturasının necə sarsıldığını müşahidə edirik. Üstəlik, bu qlobal xaos və hərbi-siyasi kataklizmlərin nə qədər davam edəcəyi bəlli deyil. Amma xatırlayın, Azərbaycan tək Ermənistan deyil, həm də havadarlarının faktiki olaraq qarşımızda dayandığı bir müharibəni mütləq qələbə ilə cəmi 44 günə bitirib. 10 illərcə uzanacaq separatizm problemini 6–7 saatlıq əməliyyatla kökündən həll edib. Ölkəmiz Qarabağ və Şərqi Zəngəzurda ən ağır hərbi əməliyyatları icra edərək, regionun reallıqlarını dəyişərkən digər əksər bölgələrimizdə vətəndaşlarımız şəhid xəbərləri istisna olmaqla, müharibənin hənirtisini, vahiməsini hiss etmədi, insanlar sülh, əmin-amanlıq içində öz gündəlik həyatlarına davam etdilər. Amma özünüz baxın, bizdən şimalda nüvə dövlətinin paytaxtı iki gündür hücum altındadır. Yəni Azərbaycan nümunəsi hər mənada unikal sabitlik konfiqurasiyasıdır və heç bir sosial-siyasi hüquq, heç bir maddi nemət təhlükəsizlik və sabitlik qədər önəmli deyil və bu reallığın bir memarı var, o da möhtərəm Prezidentdir.

Açıq deməliyik, bu gün iri güclər üçün Azərbaycanda təhlükəsiz şərait heç də arzuolunan deyil. Çünki ictimai asayişin təmin olunduğu cəmiyyətləri boyunduruğa salmaq mümkün olmur. Harada xaos varsa, ora

demokratiya pərdəsi altında müdaxilə var. Təsadüfi deyil ki, hərbi-siyasi müstəvidə cənab İlham Əliyev siyasəti qarşısında tab gətirməyənlər bu gün sosial-siyasi hüquqlardan zireh yaradıb cəmiyyəti xaosa sürükləmək məqsədi ilə “siyasi məhbus” tandemini və uydurma insan haqları tezislərini ortaya ataraq ölkəmizə qarşı qara piar kampaniyası aparırlar. Bax, bu situasiyalara görə cənab İlham Əliyevin siyasətində daxili sabitliyə və dayanıqlı sülhə çox haqlı olaraq suverenlik elementi kimi baxılır və təhlükəsiz həyat üçün həyatı biz ucuz niyyətlərə fəda etməyə heç kimə imkan verməyəcəyik. Vicdanlı jurnalistika da məhz bu məqamda öz gücünü göstərməlidir. Təbii ki, Azərbaycan jurnalistikası, Azərbaycan mediası ən çətin periodlarda özünün gücünü də, operativliyini də göstərib. Cəmiyyətdə də hər zaman jurnalist adına hörmət və ehtiram var. Amma bir sıra hallarda yad, naşı adamların yaradıcılıq azadlığı ilə peşəkar informasiya fəaliyyətini qarışıq salması ciddi problemlər meydana çıxarır.

Bacarığı çatan hər kəs, təbii ki, beyninin məhsulunu ortaya qoya bilər. Amma peşəkar informasiya işi elə məhz peşəkarlara tapşırılmalıdır. Məsələn, bu gün aidiyyəti diplom və sertifikatı olmayan şəxs necə ki həkim, müəllim, yaxud vəkil ola bilmir, eləcə də informasiya idarəçisi də olmamalıdır. Amma təbii ki, bu istiqamətdə qarşıda çox mürəkkəb, vaxt aparan bir yol var və vahid media qurumunun yaranması, cari institusional yenilənmə, hesab edirəm, bir çox, xüsusən də praktik problemlərin öhdəsindən gəlməyə imkan verəcək.

Bizim vətəndaşımız da, media mənsubumuz da artıq qalib kimi davranmalıdır. Çünki biz özümüz artıq gücük və cənab İlham Əliyev Azərbaycanı bir vaxtlar bizə demokratiya dərsi keçmək istəyənlərin özlərinin milli təhlükəsizliyində rol sahibinə çevirib. İslam İnkişaf Bankı

Qrupunun illik toplantısının açılış mərasimində, bütövlükdə, islam dünyası üçün əməkdaşlıq və rifah üzrə yol xəritəsi ortaya qoyduğu tarixi çıxışında cənab Prezidentin də dediyi kimi, artıq çox şey dəyişib. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişaf yoludur. İnanıram ki, biz bu qanunu qəbul etməklə Azərbaycan mediasının da məhz bu inkişaf yolumuzun ən mühüm seqmenti kimi çıxış etməsinə töhfə verəcəyik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, biz artıq müzakirələri bitirdik. Burada faktiki olaraq, jurnalistika haqqında danışanda hamı dedi ki, bəs peşəkar jurnalistika, media savadlılığı və sair. Mən, sadəcə, öz fikrimi bildirmək istəyirəm. Təbii ki, peşəkar jurnalistikadan danışanda biz klassik jurnalistika təhsilini möhkəmləndirməliyik və çağırışlar deyəndə də, təbii ki, yeni yanaşmalar da ortaya qoymalıyıq. Mən düşünürəm, bununla bağlı bizim Elm və təhsil komitəsi də lazım olsa, bir dinləmə keçirə bilər. Elə deyilmi, Anar müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bununla bağlı, mən düşünürəm ki, burada bizim kifayət qədər jurnalistlərimiz də var, bizi müşahidə eləyən jurnalistlər də var. Onu da deyim ki, hər il Milli Məclisə Bakı Dövlət Universitetinin müxtəlif fakültələrindən, təkcə oradan deyil, ayrı-ayrı universitetlərdən tələbələr təcrübə keçməyə gəlirlər. Çox yaxşı olardı ki, elə Jurnalistika fakültəsindən də gələrdilər. Burada bizi müşahidə edən peşəkar jurnalistlərimiz var. Bizim Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəmizdə də onlar təcrübə keçə bilərlər. Oldu, çox sağ olun.

Hörmətli həmkarlar, mən düşünürəm ki, biz kifayət qədər müzakirə etdik. Gəlin indi səsverməyə keçək. Biz indi 5-ci məsələyə səs verəcəyik.

“Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Xahiş edirəm, diqqətli olun, bizə 95 səs lazımdır. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 6-cı məsələnin səsverməsinə keçirik. “Dövlət qulluğu haqqında” və “Media haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin 7-ci məsələsinə keçirik və bu məsələ Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında” Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası rəqəmsal inkişaf və

nəqliyyat nazirinin müavini hörmətli Rəhman müəllim Hümmətov da bizim iclasımızda iştirak edir. Mən Sizi bir daha salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Bu gün komitə sədrinin müavini hörmətli Azər müəllim Badamov bütün bu məsələlərlə bağlı bizə məlumat verir. Azər müəllim, buyurun, məlumat verin.

**Azər Badamov.** Minnətdaram, hörmətli Sahibə xanım. Hörmətli deputat həmkarlar, müzakirəyə təqdim olunan qanun layihəsi ölkəmizdə avtonom nəqliyyat sistemlərinin tətbiqi üçün zəruri normativ hüquqi, texnoloji və institusional bazanın formalaşdırılması məqsədi ilə hazırlanmışdır. Məlum olduğu kimi, rəqəmsal texnologiyaların sürətli inkişafı nəqliyyat sektorunda da yeni yanaşmaların meydana çıxmasına səbəb olmuşdur. Dünyanın aparıcı ölkələrində avtomatlaşdırılmış və süni intellekt əsaslı idarəetmə sistemlərinə malik nəqliyyat vasitələrinin tətbiqi genişlənməkdədir. Bu proses avtomobil nəqliyyatı ilə yanaşı, dəmir yolu, metro, tramvay, dəniz və hava nəqliyyatı sahələrini də əhatə edir. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nda da avtonom nəqliyyat sistemlərinin tətbiqi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə normativ hüquqi bazanın yaradılması mühüm vəzifə kimi müəyyən edilmişdir.

Təqdim olunan qanun layihəsi məhz həmin tapşırığın icrası məqsədi ilə hazırlanmışdır. Layihə ilə nəqliyyat sahəsini tənzimləyən 7 qanunvericilik aktında dəyişiklik edilməsi təklif olunur. Bunlar Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi, “Yol hərəkəti haqqında”,

“Nəqliyyat haqqında”, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən əşyaların siyahısı haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Aviasiya haqqında” qanunlardır.

Qanun layihəsinin əsas məqsədi avtonom nəqliyyat vasitələrinin istismarı ilə bağlı hüquqi münasibətləri tənzimləmək, təhlükəsizlik mexanizmlərini müəyyən etmək və dövlət nəzarətinin hüquqi əsaslarının formalaşdırılmasıdır.

Layihə ilə ilk növbədə qanunvericiliyə yeni anlayışların daxil edilməsi nəzərdə tutulur. Belə ki, “avtonom nəqliyyat vasitəsi”, “operator”, “məsafədən idarəetmə mərkəzi”, “avtomatlaşdırılmış idarəetmə sistemi” kimi anlayışlar qanunvericilik səviyyəsində təsbit edilir. Eyni zamanda, beynəlxalq təcrübəyə uyğun olaraq, idarəetmənin yüksək avtomatlaşdırılmış və tam avtomatlaşdırılmış səviyyələri müəyyən olunur.

Layihədə avtonom nəqliyyat vasitəsinin anlayışı ilə yanaşı, onun operatoruna, məsafədən idarəetmə mərkəzinə və avtomatlaşdırılmış idarəetmə sistemlərinə dair əsas tələblər də müəyyən edilir. Təklif olunur ki, avtonom nəqliyyat vasitələri yalnız dövlət qeydiyyatına alındıqdan sonra və müvafiq dövlət orqanlarının müəyyən etdiyi ərazilərdə istismar olunsun.

Qanun layihəsinin mühüm istiqamətlərindən biri operator institutunun yaradılmasıdır. Layihəyə əsasən avtonom nəqliyyat vasitələrinin istismarına nəzarəti həyata keçirən fiziki və ya hüquqi şəxslər operator qismində fəaliyyət göstərə biləcəklər. Bunun üçün onlar müvafiq şəhadətnamə almalıdırlar. Şəhadətnamənin etibarlılıq müddəti 5 il müəyyən edilir. Operatorların üzərinə bir sıra mühüm vəzifələr qoyulur. Onlar avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə

sisteminin fəaliyyətinə nəzarət etməli, təhlükə yarandığı hallarda operativ müdaxilə etməli, nəqliyyat vasitəsinin fəaliyyəti ilə bağlı məlumatların saxlanılmasını və mühafizəsini təmin etməli, qəza, hadisə və ya insident baş verdikdə dərhal aidiyyəti dövlət qurumlarını məlumatlandırmalıdır.

Layihədə operator fəaliyyətinin hüquqi və maliyyə əsasları da müəyyən edilir. Belə ki, operator fəaliyyəti üçün verilən şəhadətnaməyə görə 20 manat məbləğində dövlət rüsumunun tətbiqi nəzərdə tutulur. Eyni zamanda, məlumatların idarə olunması və rəqəmsal nəzarət mexanizmlərinə xüsusi diqqət yetirilir. Avtonom nəqliyyat vasitələrinin istismarı ilə bağlı məlumatların məsafədən idarəetmə mərkəzləri vasitəsi ilə real vaxt rejimində dövlət informasiya sisteminə ötürülməsi nəzərdə tutulur. Həmin məlumatlar qeydə alınmalı və operatorlar tərəfindən ən azı 6 ay müddətində mühafizə edilməlidir. Bu yanaşma həm təhlükəsizliyin təmin edilməsinə, həm də mümkün insidentlərin araşdırılmasına xidmət edir.

Layihədə təhlükəsizlik məsələləri ayrıca əhatə olunur. Avtonom nəqliyyat vasitələrinin tətbiqindən əvvəl onların avtomatlaşdırılmış idarəetmə sistemlərinin xüsusi tənzimləyici test mühitində sınaqdan keçirilməsi və qiymətləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, avtomobil yollarında, hava məkanında, su hövzələrində və digər nəqliyyat infrastrukturunda avtonom nəqliyyat vasitələrinin hərəkət edə biləcəyi konkret ərazilərin müəyyən edilməsi təklif edilir.

Qanun layihəsinin mühüm müddəalarından biri də məsuliyyət mexanizmlərinin müəyyən edilməsidir. Belə ki, avtonom nəqliyyat vasitəsinin istismarı nəticəsində vurulmuş zərərə görə nəqliyyat vasitəsinin mülkiyyətçisi, istismarçısı, operatoru və ya istehsalçısı arasında məsuliyyət

bölgüsü dəqiqləşdirilir. Bu, həm hüquqi müəyyənliyin təmin olunmasına, həm də zərərçəkmiş şəxslərin hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edir.

Avtomobil nəqliyyatı sahəsində avtonom nəqliyyat vasitələrinin digər nəqliyyat vasitələrindən fərqləndirilməsi məqsədi ilə xüsusi avtonom nəqliyyatı vasitəsi tanınma nişanının tətbiqi nəzərdə tutulur. Bu nişan yol hərəkəti iştirakçılarının məlumatlandırılmasına və hərəkətin təhlükəsizliyinin artırılmasına xidmət edəcəkdir. Layihə ilə həmçinin pilotsuz texnologiyaların tətbiqi sahəsində hüquqi nəzarətin gücləndirilməsi məqsədi ilə mülki təyinatlı avtonom pilotsuz uçuş aparatlarının dövriyyəsinin xüsusi icazə tələb edən əşyalar siyahısına daxil edilməsi təklif olunur. Bu yanaşma milli təhlükəsizlik, aviasiya təhlükəsizliyi və hava məkanından istifadənin effektiv tənzimlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Hörmətli həmkarlar, təklif olunan dəyişikliklər ölkəmizdə innovativ və rəqəmsal nəqliyyat texnologiyalarının tətbiqi üçün hüquqi zəmin yaradır, nəqliyyat sahəsində təhlükəsizlik və məsuliyyət mexanizmlərini müəyyən edir, eyni zamanda, Azərbaycanın gələcəkdə “ağıllı nəqliyyat sistemləri”nin tətbiqinə hazır olmasını təmin edir. Qanun layihəsinin konsepsiyası müasir texnoloji çağırışlara cavab verir, beynəlxalq təcrübəyə əsaslanır və ölkəmizin rəqəmsal transformasiya hədəfləri ilə tam uzlaşır. Bunları nəzərə alaraq, təqdim olunan qanun layihəsinin birinci oxunuşda dəstəklənməsini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Ona görə də, Əli müəllim, yenə də üzümü Sizə tuturam. Buyurun, qanun layihəsi ilə bağlı məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Açığı, mənim hansı isə əlavə fikirlərim yoxdur. Çünki həmkarım Azər müəllim çox geniş, ətraflı məruzə etdi.

Bu 7 müxtəlif qanunda, o cümlədən bizim komitənin profilinə aid olan “Yol hərəkəti haqqında” Qanunda dəyişikliklər, əslində, cəm şəklindədir və məqsəd avtonom nəqliyyat ekosisteminin əsaslarının yaradılması ilə bağlıdır. Bütün məsələlər səsləndirilib. Mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq, hörmətli sədr, onu qeyd etmək istəyirəm ki, ümumiyyətlə, son illər ölkəmizdə nəqliyyat sahəsinin idarə edilməsində həyata keçirilən islahatları biz dəstəkləyirik, onun effektivliyini, nəticəsini də görürük. Müsbət hal ondan ibarətdir ki, xatırlayırsınızsa, hətta keçən çağırışda “Aviasiya haqqında” Qanunun müzakirəsi kontekstində, o cümlədən bu qanunun müzakirəsi hər zaman çox geniş olub. Nazirlik ilə komitələr arasında çox səmərəli əməkdaşlıq mövcuddur və bu da imkan verir ki, layihələrin mahiyyəti barədə ictimaiyyətə geniş məlumat verək. Bu layihə isə, həqiqətən, Azərbaycanda avtonom nəqliyyat ekosisteminin yaradılmasına və ölkəmizin bu sahədə qabaqcıl ölkələrlə bir sırada olmasına xidmət edir.

Biz dəstəkləyirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə keçirik. Göydəniz Qəhrəmanov. Buyurun.

**Göydəniz Qəhrəmanov.** Hörmətli xanım sədr, mənə söz verdiyiniz üçün təşəkkür edirəm. Öncədən bildirmək istəyirəm ki, qanun layihəsinə

səs verəcəyəm. Müzakirə etdiyimiz qanun layihəsində yer alan aviasiya haqqında dəyişiklikləri nəzərə alaraq, bir vacib məsələyə diqqət çəkmək istərdim. Məlum olduğu kimi, cənab Prezidentin rəhbərliyi və dəstəyi ilə ölkəmizdə turizm sektoru prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahənin inkişafı üçün ardıcıl və genişmiqyaslı dövlət siyasəti həyata keçirilir. Dövlətimiz tərəfindən həm paytaxt Bakıda, regionlarda, həm də işğaldan azad olunmuş ərazilərdə müasir turizm infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Yeni turizm kompleksləri tikilir, dəmir yolları yenilənir. Təkcə Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə üç beynəlxalq hava limanı istifadəyə verilmişdir. Eyni zamanda, ölkəmizin turizm potensialı beynəlxalq sərgilərdə və platformalarda fəal şəkildə təbliğ olunur. Bütün bu amillər göstərir ki, dövlətin əsas hədəflərindən biri turist axınının artması və ölkənin regionda turizm mərkəzinə çevrilməsidir. Bu səbəbdən aviasiya sektoru mühüm önəm daşıyır. Belə ki, ölkəyə gələn turistlər, əsasən, hava nəqliyyatından istifadə edirlər. Lakin son dövrlərdə aviabiletlərin qiymətində müşahidə olunan kəskin artım həm ölkəyə gələn turistlərin, həm də vətəndaşlarımızın xarici səfərləri zamanı səyahət xərclərinin artmasına səbəb olur. Aviaşirkətlərin qiymət siyasətinə daha geniş, turizm prizmasından yanaşması turizm sektorunun ümumi inkişaf maraqları naminə daha məqsədəuyğun olardı. Belə ki, aviabiletlərin daha əlçatan olması ölkəyə gələn turistlərin sayının artmasına səbəb olar. Bu isə təkcə aviasiya sektorunun deyil, bütövlükdə, turizm sənayesi iştirakçılarının gəlirlərinin artmasına, eyni zamanda, yeni iş yerlərinin açılmasına səbəb ola bilər.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, doğrudan da, şəhərlərimizin inkişafı, avtomobillərin artması həm sərnişinlər, həm də sürücülər üçün yol hərəkəti təhlükəsizliyinin zəruriliyini şərtləndirir və qəbul edilən qanunlar da məhz buna xidmət edir.

Azərbaycanda kateqoriyalara görə müxtəlif yollar var. Bu yolların təmir olunması, genişləndirilməsi, xüsusən işğaldan azad olunmuş ərazilərimizə geniş magistral yolların çəkilməsi xüsusi əhəmiyyət daşıyır və mən düşünürəm ki, Azərbaycanın həm də mədəni, iqtisadi inteqrasiyasını təmin etmək üçün yaxşı bir vasitəyə çevrilir. Ancaq hər kəsə bəllidir ki, bu gün sürət erasıdır, sürət zəmanəsidir. A nöqtəsindən B nöqtəsinə hərəkət etdirilən hər hansı bir texniki vasitə nə qədər qısa müddətdə təyinat nöqtəsinə çatarsa, bir o qədər yaxşı olar. Mən düşünürəm ki, bəzi hallarda hərəkətin təhlükəsizliyinin təmin olunması ilə bərabər hərəkət sürətinin də nəzərə alınması zərurəti yaranır. Şübhəsiz ki, ilk növbədə təhlükəsizlik qorunmaqla. Amma bəzi hallarda sürücülərdə süni formada hərəkət sürətində məhdudiyyətliliyin yaradılması ilə bağlı təsəvvürlər formalaşır və mən düşünürəm ki, doğrudan da, bunun müəyyən əsasları var. Lazım olmayan yerdə, magistral yolda, təhlükəsizliyin təmin olunmadığı yolda bəzən sürət həddi o qədər aşağı olur ki, yəni çəkilmiş yolun da, vətəndaşın təhlükəsizlik hərəkəti və sürətinin azaldılmasının, yaxud çoxaldılmasının da artıq bir əhəmiyyəti qalmır.

Biz bilirik, Azərbaycanda WUF13 tədbiri keçirildi və bu gün şəhər nəqliyyatının qarşısında nəqliyyatın təhlükəsizliyi ilə bərabər, həm də mobil hərəkətlilik məqsədləri dayanır, xüsusən şəhər nəqliyyatının təhlükəsizliyi.

Bununla bağlı da müəyyən işlər görülür, velosiped zolaqları salınır, – indi yeni qanun qəbul edəcəyik, – mopedlərin nömrələnməsi və sair.

Ancaq yolların xətlənməsində müəyyən problemlər var. Tutaq ki, məsələn, təhlükəsiz hərəkət zolağının eni beynəlxalq standartlara görə 3,5-3,75 metr olmalıdır. Çox təəssüf ki, maşınların dayanacaq kimi istifadə etdiyi ərazilər nişanlanır və ondan sonra ölçülən yol, baxırsınız ki, artıq standartdan aşağıdır. Xüsusən də hərəkət edən balaca SUV tipli avtomobillərin yanına bir də bir avtobus düşəndə yoldan istər-istəməz çıxmalı olursunuz və bu zaman kəsilməz xətti kəsmək məcburiyyətində qalırsınız. Bir də baxırsınız ki, başınızın üstündə bunu qeydə alan xüsusi bir nəzarət kamerası var və beləliklə, sizi məcburi şəkildə yolu kəsməyə məcbur edən o xətləmə cərimələnmənizə gətirib çıxarır.

Mən düşünürəm ki, bu işlərin hamısını görməklə bərabər, o standartlara da diqqət yetirmək lazımdır. Nəticədə nə baş verir, xanım sədr. Ən pisi odur ki, bu, sürücülər üzərində təzyiq yaradır. Məsələn, rayona gedəndə şəxsən mən özüm sürücü statusunda maşını idarə edərkən radarlardan qorunmaq üçün telefonumu açıb “Waze” xüsusi proqramından izləməyə çalışıram. Bir gözüm telefonda, bir gözüm yol işarəsində qalır, bir gözüm də qalır maşının sürətində. Mən necə edim ki, yol hərəkətini pozmadan rahat və təhlükəsiz şəkildə getdiyim məntəqəyə çatım. Sürücülərdə bu o qədər psixoloji diskomfort yaradır ki, nəticə etibarı ilə təhlükəsizlik üçün görülən tədbirlər tam elə təhlükə yaradan tədbirlərə çevrilir. Bax, düşünürəm ki, hörmətli nazir müavinimiz buradadır. Bu məsələlərlə bağlı həm də bu standartlara diqqət etsinlər. Məsələn, kəsilməz xətlər və kəsilən xətlər. Yol döngələri var, yol elə xətlənib, siz dönmək məcburiyyətindəsiniz, amma baxırsınız ki, dönən kimi dərhal

qarşınızda avtomobillərin dayanması üçün işarə edilmiş bir yol var və kimsə orada avtomobilini park edibdir. Siz ya o avtomobili vurmalısınız, ya onun üstünə çıxmalısınız, ya da yolu kəsib qaydanı pozmalısınız, demək, başqa bir əlacınız qalmır. Əlbəttə, bütün bunlar az da olsa var, amma mən düşünürəm ki, bunlarla bağlı tədbirlər də görülməlidir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə, əlbəttə ki, önəmli layihədir və texnoloji inkişafın qarşısını almaq kimi istənilən cəhdlər tarix boyu uğursuzluqla nəticələnib. Ona görə, əlbəttə ki, yeniliklərlə ayaqlaşmaq lazımdır. Amma bu avtonom nəqliyyat sahəsi hələ də dünyanın özündə çox da yoxlamalardan uğurlu keçmiş bir sahə deyildir. Xüsusi ilə həmin sahənin mütəxəssisləri ilə hüquqşünasların arasında bu günə qədər mübahisələr davam edir. Hüquqşünaslar, ümumiyyətlə, onların peşələri həyata mühafizəkar baxış tələb edir. Ona görə də hüquq, ümumiyyətlə, ən gec inkişaf edən sahələrdəndir. Hətta hələ qədim romalıların da bir sözü vardı ki, “Jus non facit saltus” – “hüquq sıçrayış etmir”. Ona görə bu məsələlərdə, mənə elə gəlir ki, biz xeyli dərəcədə ehtiyatlı olmalıyıq. Məsələn, hüquq anlayışları var. Deyək ki, son zərurət anlayışı var. Avtonom nəqliyyatın özü də, ümumiyyətlə, istənilən nəqliyyat vasitəsi yüksək təhlükə mənbəyidir. Yəni bu, qanunvericilikdə istifadə olunan anlayışdır. Onun sahibinin, mülkiyyətçisinin xüsusi bir məsuliyyəti var, hətta təqsirsiz məsuliyyəti var. Çünki məsuliyyət yalnız təqsirli olmur, mülki məsuliyyətdir. Təqsirsiz məsuliyyətlər də olur. Sən özün maşını idarə etmirsən, vermisən birinə, maşın hansı isə bir qəza törədir, kiməsə maddi

ziyan vurur. O sürücü özü inzibati və yaxud cinayət məsuliyyətini daşıyacaq, amma maşının mülkiyyətçisi də maddi, mülki məsuliyyət daşımalıdır. Çünki yüksək təhlükə mənbəyinin mülkiyyətçisidir.

Bu günə qədər avtonom nəqliyyatın da qərarvermə alqoritmi hüquqşünaslar tərəfindən mübahisələndirilir. Çeşidli sınaqlar da göstərir ki, avtonom nəqliyyatın təhlükəli şəraitdə verdiyi qərarla insanların verdiyi qərarlar çox fərqli düşüncə sxeminə bağlıdır. Deyək ki, bir avtonom nəqliyyatın testlərini təklif ediblər. Hamilə qadın və yaxud yanında balaca bir uşaq, hansı birini vuracaq. Əksər hallarda avtonom nəqliyyat test yoxlamalarında hamilə qadını vurur, çünki alqoritm belə işləyir. Bu uşaq hələ doğulmayıb. Bu uşaq doğulacaqmı, doğulmayacaqmı? Bəlkə qadın onu abort etmək istəyəcək, amma bu isə artıq diri bir uşaqdır. Ondansa hamilə qadını vursun. Yaxud yaşlı insanla gənc insan arasında seçimə qalanda, demək olar ki, əksər hallarda yaşlı insanı vurur. Çünki alqoritm belə qurulur ki, yaşlı insan artıq ömrünü yaşayıb, bu gəncin hələ irəlidə çox yaşı var. Cavandansa yaşlı  insanı vursun. Heç bir halda insan belə düşünmür. Son zərurət halları da var, məsələn, hüquqşünaslar bilir. Əgər zərər vurmaq qaçınılmazdırsa, daha az zərər vurmaqla formal baxımdan qanunu pozmaq halı olsa belə, insan az ziyan vurmağı seçə bilir. Avtonom nəqliyyatın çeşidli test yoxlamalarında hələ ki hüquqşünasların qəbul edə biləcəyi qərarvermə mexanizmi formalaşmayıb.

Mən indi bu layihənin əleyhinə danışmıram, yanlış anlaşılmağımı da istəmirəm. Mən, sadəcə olaraq, bir hüquqşünas kimi bu layihəni hazırlayanları və xüsusi ilə onu sonradan tətbiq etməyi nəzərdə tutan qurumları, mümkünsə, yaxşı mənada xəbərdar etmək istəyirəm. Çünki texnologiyanın inkişafı, dediyim kimi, çox sürətlə baş verir,

hüquqşünaslıqdan fərqli olaraq. O sahənin mütəxəssisləri elə bilirlər ki, həqiqətən də, cəmiyyəti harasa irəliyə aparırlar. Amma hüququ nəzərdən qaçırmaq olmaz. Hüquq yalnız, bax, bu qanunvericilikdə edilən dəyişikliklər deyil, bu, sadəcə, qanundur. Qanun hüququn lüğətidir. Həyat daha zəngindir və deməli, həyatda hətta o qədim nəzəriyyədə "kitabda hüquq", "həyatda hüquq" deyə fərqləndirmələr də var.

Bax, istəyirəm ki, bu məsələni aidiyyəti qurumlar və bu layihəni hazırlayan qurum, deməli, qanunvericilik subyekti qətiyyən nəzərdən qaçırmasınlar. İndi birinci oxunuş olduğuna görə ümumi şəkildə danışdım. Növbəti oxunuşlarda, ola bilsin, konkret təkliflərim də olacaq. Amma onu da bildirmək istəyirəm ki, bir hüquqşünas kimi mən bu sayaq yeniliklərə çox skeptik yanaşıram. Ona görə istəyirəm ki, bu qanun layihəsini hazırlayanlar da mənim bu skeptik yanaşmamdan xəbərdar olsunlar.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, yazılanlar çıxış etdilər. Mən səsverməyə keçirəm, qanun layihəsinə münasibət bildirməyinizi xahiş edərəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Rəhman müəllim, biz Sizi yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyimizin 8-ci məsələsinə keçirik. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə 2025-ci il 9 dekabr tarixli qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Azər Badamov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının “Yol hərəkəti haqqında” Qanununda edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin digər qanunvericilik aktlarında tənzimlənməsi məqsədi ilə hazırlanmışdır. Məlum olduğu kimi, “Yol hərəkəti haqqında” Qanunda edilmiş dəyişikliklərlə mopedlərin idarə edilməsi, dövlət qeydiyyatı və yol hərəkəti təhlükəsizliyi ilə bağlı yeni tələblər müəyyən olunmuşdur. Həmin dəyişikliklərin əsas məqsədi yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin olunması, mopedlərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması, habelə bu sahədə hüquqi tənzimlənmə mexanizminin yaradılmasıdır. Qanuna əsasən mopedlərin müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınması, uçotunun aparılması və onlara dövlət qeydiyyat nişanının verilməsi nəzərdə tutulur. Eyni zamanda, mopedlərin yalnız sürücülük vəsiqəsi əsasında idarə edilməsi müəyyən edilmişdir. Bununla da nəqliyyat vasitələrinin sürücüləri üçün qanunvericilikdə nəzərdə tutulmuş bir sıra hüquq və vəzifələr moped sürücülərinə də şamil olunur. Beləliklə, mopedi idarə etmək üçün A1 kateqoriyalı sürücülük vəsiqəsinin, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının olması tələb ediləcəkdir. Bu yanaşma mopedlərin yol hərəkətində iştirakına nəzarətin

gücləndirilməsinə, sürücülərin məsuliyyətinin artırılmasına və yol hərəkəti təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə xidmət edir.

Bu gün müzakirəyə təqdim olunan qanun layihəsi isə qeyd edilən yeniliklərin tam və səmərəli tətbiqini təmin etmək məqsədi ilə “Avtomobil yolları haqqında”, “Dövlət rüsumu haqqında” və “İcbari sığortalar haqqında” qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsini nəzərdə tutur. Layihədə, əsasən, mopedlərin dövlət qeydiyyatına alınmasına, dövlət qeydiyyat nişanlarının verilməsinə, texniki baxışdan keçirilməsinə, sürücülük vəsiqəsinin alınması üçün imtahanların qəbuluna, sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsinə görə dövlət rüsumlarının tətbiqi mövcud qanunvericilikdə analoji nəqliyyat vasitələri üçün müəyyən edilmiş rüsumlara uyğun olaraq tənzimlənir.

Bununla yanaşı, layihədə dövlət qeydiyyatına alınmış mopedlərin istifadəsi zamanı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortasının tətbiqi də nəzərdə tutulur. Bu isə yol-nəqliyyat hadisələri nəticəsində zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsi və mümkün zərərlərin kompensasiyası baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd etmək istərdim ki, qanunvericiliyə əsasən moped dedikdə kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla, elektrik mühərriki ilə və ya iş həcmi 50 kubsantimetrdən çox olmayan mühərriklə hərəkətə gətirilən, maksimal konstruktiv sürəti saatda 50 kilometrdən artıq olmayan 2 və ya 3 təkərli nəqliyyat vasitəsi başa düşülür.

Ümumilikdə, təqdim olunan qanun layihəsi mopedlərin hüquqi statusunun daha dəqiq müəyyən edilməsinə, onların təhlükəsiz istismarına, dövlət uçotunun aparılmasına və yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Hörmətli həmkarlar, qanun layihəsini birinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Necə? Fasiləsiz? Hamı razıdır, yoxsa mən səsə qoyum? Xahiş edirəm, münasibət bildirin. Buyurun, mən səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, səsvermə nəticəsində biz fasiləsiz işləyirik.

Hörmətli həmkarlar, biz indi bu məsələ ilə bağlı müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Mopedlər ilə bağlı "Yol hərəkəti haqqında" Qanunda təklif olunan dəyişiklikləri dəstəkləyirəm. Söhbət yol təhlükəsizliyindən, insan həyatından və qanunvericiliyin şəhər nəqliyyatında yaranan yeni reallığa uyğunlaşdırılmasından gedir. Son illər mopedlər və kiçik mühərrikli, iki təkərli nəqliyyat vasitələri xüsusi ilə çatdırılma xidmətində geniş yayılıb. Bu, iqtisadi baxımdan faydalıdır. Eyni zamanda, yeni təhlükəsizlik riskləri də yarada bilir. Sürücülük bacarığı olmayan şəxslərin yola çıxması, nəqliyyat vasitələrinin qeydiyyatsız olması və qəza zamanı məsul şəxsin müəyyən edilməsində çətinliklər artıq real problemlərdir və bunu şəxsən mən özüm də və yaxınlarım da yaşayıb. Beynəlxalq təcrübə də göstərir ki, mopedlərə

tam nəzarətli yanaşma var. Avropa İttifaqının əksər ölkələrində mopedlər üçün minimum yaş həddi, sürücülük vəsiqəsi, qeydiyyat və dövlət nömrə nişanı tələb olunur. Əsas prinsip sadədir – ümumi yolda hərəkət edən hər bir nəqliyyat vasitəsi və onun sürücüsü məsuliyyət daşımalıdır. Bu baxımdan mopedlər üçün A, B kateqoriyalı sürücülük vəsiqəsinin, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının tələb olunması məntiqlidir.

Eyni zamanda, tətbiq prosesi vətəndaş üçün sadə, sürətli və əlçatan olmalıdır. Xüsusi ilə çatdırılma sahəsində çalışan gənclərin bu tələblərə rahat uyğunlaşması üçün keçid dövrü və geniş maarifləndirilmə aparılması məqsədəuyğun olar. Bu baxımdan üç aylıq keçid dövrünün tətbiqini təklif edirəm.

Yekunda demək istəyirəm ki, moped kiçik nəqliyyat vasitəsi ola bilər, amma onun yaratdığı risk kiçik olmur. Bu dəyişiklik qadağa deyil, məsuliyyət və yol təhlükəsizliyinin gücləndirilməsi deməkdir. Ona görə də qanun layihəsini dəstəkləyirəm.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. Mən də qanun layihəsini dəstəkləyirəm.

Qeyd etmək istəyirəm ki, qanun layihəsi beynəlxalq təcrübəyə əsaslanır. Çünki bu gün Avropa İttifaqının əksər ölkələrində, o cümlədən Almaniya, Fransa, İtaliya, Niderland və digər dövlətlərdə mopedlər qeydiyyata alınır, sığortalanır və onları idarə etmək üçün xüsusi

kateqoriyalı sürücülük hüququ tələb olunur. Təqdim edilən layihə isə beynəlxalq təcrübəyə əsaslanmaqla yanaşı, həm də ictimai maraqların qorunmasına və hərəkətin təhlükəsizliyinin təmin edilməsinə xidmət edir.

Bununla yanaşı, gələcəkdə hazırda müşahidə olunan bəzi məqamların da diqqətə alınmasını zəruri hesab edirəm. Mopedlərlə bağlı hüquqi tənzimləmənin tamamilə doğru olaraq gücləndirilməsi xüsusi ilə də çatdırılma xidmətləri ilə bağlı bəzi narahatlıq doğuran sui-istifadə hallarının da yaranmasına səbəb olur. Artıq Azərbaycanda da kuryer xidmətləri və çatdırılma sektorunda çalışan şəxslər, o cümlədən də sadə vətəndaşlar, bütövlükdə, elektrik skuterlərdən və velosipedlərdən istifadə etməyə başlayırlar. Təəssüf ki, bir çox hallarda həm yol hərəkətinin intensiv olduğu hissədə, həm də piyadalar üçün nəzərdə tutulmuş zolaqlarda hərəkət edərək öz həyatlarını, piyadaları və digər nəqliyyat vasitələrinin sürücülərini təhlükə qarşısında qoyurlar.

Burada diqqət yetirməli olduğumuz mühüm məqam ondan ibarətdir ki, hazırkı layihə mopedləri əhatə etsə də, elektrik skuterlər, velosipedlər, o cümlədən kommersiya məqsədi ilə istifadə olunan sözügedən nəqliyyat vasitələri ilə bağlı hüquqi tənzimləmələr hələ tam formalaşmayıb. Əslində, yaxın illərdə yol hərəkətinin təhlükəsizliyi baxımından əsas çağırış da məhz bu istiqamətdən qaynaqlana bilər.

Bəlli olduğu kimi, Bakı şəhərinin relyefi mürəkkəbdir. Küçələrin və prospektlərin əhəmiyyətli hissəsi uzun illər əvvəl salınıb. Yol şəbəkəsinin bir çox hissəsində velosiped və skuterlər üçün əlavə zolaqlar yaratmaq, bu zolaqlar üzrə hərəkətin davamlılığını təmin etmək texniki baxımdan mümkün deyil. Bu səbəbdən, düşünürəm ki, gələcəkdə velosiped və skuterlərin elektron qeydiyyatı, istifadəçilərin yol hərəkəti qaydaları ilə bağlı

qısamüddətli təlimlərə cəlb edilməsi, təhlükəsizlik vasitələrinin məcburi tətbiqi, kommersiya məqsədi ilə istifadə olunan bu qəbildən olan nəqliyyat vasitələrinin sadələşdirilmiş identifikasiyasını təmin edən mexanizmlərin yaradılması da zəruridir.

Qeyd edim ki, Çində və bir sıra digər dövlətlərdə elektrik skuterlərinin sürəti maksimum 25 kilometr saatdırsa, digər texniki göstəriciləri dövlət standartlarına uyğundursa, onları idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunmasa da, belə nəqliyyat vasitələrinin qeydiyyatdan keçməsi və dövlət qeydiyyat nişanı alması məcburi sayılır. Sürəti 25 kilometrdən yuxarı olan nəqliyyat vasitələrinin idarə olunması  üçün isə sürücülük vəsiqəsi tələb olunur.

Digər tərəfdən, bu və ya digər şəxs hansı nəqliyyat vasitəsi ilə hərəkət etməsindən, idarə etməsindən asılı olmayaraq əgər yolun hərəkət hissəsinə çıxırsa, faktiki olaraq hərəkətin iştirakçısına çevrilir və təbii ki, digər hərəkət iştirakçıları kimi o da bu və ya digər formada məsuliyyət daşımalıdır.

Layihəni müsbət qiymətləndirirəm, amma eyni zamanda, qeyd etdiyim məqamlara da diqqət yetirilməsini rica edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Məlahət İbrahimqızı. Buyurun,  Məlahət xanım.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlarım, hörmətli xanım sədr. Məndən öncə çıxış edən həmkarlarımın fikirlərinə mən də qoşuluram. Həqiqətən də, bizim gündəlik həyatımızda ən çox rastlaşdığımız problemlərdən biri bu gün bu qanunla tənzimlənir. Yəni 10–15 il bundan qabaq biz Bakı küçələrində nadir hallarda mopedləri, yaxud ona bənzər digər nəqliyyat növlərini görərdik. Çox təqdirəlayiqdir ki,

rastlaşdığımız hər bir problem, yaxud çağırışlar olsun, ən operativ halda Azərbaycan qanunvericiliyi ilə tənzimlənir.

Məndən öncə Hikmət müəllim müəyyən məsələlərə toxundu. Keçən dəfə hörmətli həmkarım Naqif müəllim də bu barədə danışmışdı. Bu gün Azərbaycanda təkcə dövlətimizin yaratdığı nəqliyyat infrastrukturu deyil, eyni zamanda, vətəndaşa nəqliyyat xidməti ilə bağlı da çox böyük işlər görülür.

Bir neçə gün bundan öncə Yeni Azərbaycan Partiyasının xətti ilə Şuşada keçirilən konfrans zamanı xaricdən gələn turistlər böyük heyranlıqla Azərbaycanda möhtərəm Prezidentimizin rəhbərliyi ilə yaradılmış infrastruktur layihələrindən danışırdılar. Təbii ki, hər bir azərbaycanlı kimi biz də bununla fəxr edirik.

Bu gün Bakıda, eləcə də Bakıdan kənarda taksi xidməti sahəsində, ictimai nəqliyyatla bərabər özəl nəqliyyat xidməti sahəsində də çox böyük nailiyyətlər var. Belə ki, fərqli taksi şirkətlərinin olması sağlam rəqabət nəticəsində qiymətləri hər kəs üçün əlçatan edir və hər kəs ondan istifadə edə bilir. Amma taksi xidmətində bu gün vətəndaşların üzləşdiyi problem nədir? Mən özüm də işimlə bağlı taksi xidmətindən çox istifadə edirəm. Taksi sürücüləri də xahiş edirlər ki, parlamentdə bu məsələlər qaldırılsın.

Avropada, eləcə də qardaş Türkiyədə taksi xidmətlərində “düş-min” deyilən bir xidmət var. Yəni taksiyə 2–3 dəqiqə imkan verilir ki, sərnişin istədiyi dayanacaqda düşə bilsin. Məsələn, mən Milli Məclisə Elm və Təhsil Nazirliyinin yanından gəlirəm. Elm və Təhsil Nazirliyinin yanından bura gələnə qədər o deyilən “düş-min”, iki dəqiqəlik imkan yoxdur ki, vətəndaş, sərnişin düşsün, istədiyi mənzilə qovuşsun.

Həsən Əliyev küçəsində “ASAN xidmət” var. Ölkəmizdə bu xidmət, təbii ki, nümunəvi bir xidmətdir. Vətəndaşlar gəlir, yaşlı, xəstə, hamilə qadın var, yağış, soyuq var. “ASAN xidmət”dən, – mən konkret ünvanı deyirəm, – taksi sürücüsü ən azı 200–300 metr uzaqda məcburi bir döngə tapır ki, cərimə olunmasın. Yaxud məsələn, onun yanında Ege Hospital var, 2 dəqiqə imkan yoxdur ki, taksilərin gətirdiyi sərnişin düşsün. Yaxud da, bax, Qoşa Qala qapısında bu yaxınlarda tədbir var idi. Biz Kıbrısın tədbirinə gedirdik. Qoşa Qala qapısında keçirilən tədbirdə sərnişin taksidən düşmək üçün gərək sürücü maşını Mərkəzi Univermaqdan, Daxili İşlər Nazirliyindən də bir 100 metr o tərəfdə saxlasın. Yenə deyirəm, soyuq var, necə deyərlər, hər cür vəziyyət ola bilər.

Taksi sürücüləri bu gün tətbiq olunan cərimələrdən narazı deyillər, onlar, sadəcə, xahiş edirlər ki, bu cərimələr olmaması üçün şərait yaradılsın. Ən azı 2–3 dəqiqə taksi sürücüsünə imkan yaradılsın ki, sərnişin çatdığı mənzildə rahat düşə bilsin. Mən xahiş edərdim ki, bu qanun layihəsini təqdim edən müvafiq komitə bu məsələyə də baxsın.

Bir də taksi sürücülərinin ən çox xahiş etdikləri məsələlərdən biri də odur ki, AYNA – Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi adlanan o agentliklə yol hərəkəti qaydalarını tənzimləyən qurum arasında çox ciddi, paradoksal ziddiyyətlər var. Xahiş edirlər ki, bu ziddiyyətlər də götürülsün. Çünki hər biri fərqli yanaşır, məsələn, AYNA taksilərin içərisində terminal tələb etmir, yəni o şərt deyil, amma yol hərəkəti qaydalarını tənzimləyən digər qurumlar onu şərt kimi qoyur və olmadıqda cərimə edir. Ona görə, xahiş edirəm, gələcəkdə bu məsələyə baxılsın. Hesab edirəm, bu məsələ günün ən aktual məsələsidir, ən aktual problemidir ki, bu gün biz onu qanunla tənzimləyirik.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, biz indi səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə səs verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Biz 9-cu məsələyə keçirik. “Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında” Qanunda və digər 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, yenə də söz Sizindir. Buyurun, bununla bağlı məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Hər iki layihə Elektron Hökumət İnformasiya Sisteminin fəaliyyətimizdə daha geniş tətbiqi ilə bağlıdır.

Birincisi, onu qeyd edim ki, “İctimai iştirakçılıq haqqında” Qanun həm də bizim üzərimizə qanunların ictimai müzakirəsinin, dinlənməsinin təşkil edilməsi tələbini qoyur.

Hörmətli sədr, həm Sizin təşəbbüsünüzlə, həm də deputatların təşəbbüslərinə pozitiv yanaşılması nəticəsində son dövrlər parlamentdə qanunların ictimai müzakirəsi çox geniş bir vüsət almışdır. Bu, həm qanunun tələbidir, həm də hesab edirəm ki, vətəndaş məmnunluğunu

təmin edir. İctimai müzakirələrdə deputatlar həm vətəndaş cəmiyyəti ilə təmasda ola bilirlər, həm də hökumət nümayəndələrinin ictimai müzakirələrdəki çıxışları hesabatlığın bir formasıdır. Yəni qeyd etmək istəyirəm ki, ictimai müzakirə qanunvericilik prosesində çox mühüm əhəmiyyət kəsb edir. Bizim Aparatın əməkdaşları da onu yüksək səviyyədə təşkil edirlər.

İndi təklif olunan dəyişiklik bu ictimai dinləmə və müzakirələrin təşkilini daha da asanlaşdıracaq, yəni onu Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirmək mümkün olacaq. Həm iş asanlaşacaq, həm şəffaf olacaq, həm də hesab edirəm ki, bütün tərəflər, o dəvət olunan tərəflər bundan məmnun qalacaqlar.

Layihənin ikinci hissəsi isə "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikası Qanununda edilən oxşar dəyişiklikdir. Çünki bilirik ki, vaxtı ilə referendum nəticəsində belə bir dəyişiklik edildi və Azərbaycan vətəndaşlarına da belə bir mühüm hüquq – qanunvericilik təşəbbüsü hüququ verildi. Onlar da praktikada bundan istifadə ediblər, yəni belə cəhdlər olub, çünki qaydalara tam riayət etmək lazımdır. İndi təklif olunan dəyişiklik onu nəzərdə tutur ki, bu proses də Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə həyata keçirilsin, yəni vətəndaş məmnunluğu təmin edilir.

Bu baxımdan təklif edilən bu üç qanuna əlavə və dəyişiklikləri çox mütərəqqi hesab edirik və həmkarlarımızdan da səs vermələrini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Yazılan var. Erkin Qədirli. Erkin müəllim, buyurun.

**Erkin Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu, doğrudan da, çox önəmli bir layihədir. Bundan əvvəlki layihədən fərqli olaraq bu layihə ilə bağlı, buradakı elektronlaşma və yeni texnologiyaların tətbiqi ilə bağlı heç bir skeptik münasibətim yoxdur. Tam dəstəkləyirəm. Çox önəmlidir və komitəmizin sədri hörmətli Əli bəy söylədi deyə, mən bu məsələni xatırlatmaq istəyirəm.

Həqiqətən də, qanunvericilik təşəbbüsü hüququ vətəndaşlara Konstitusiya referendumu ilə verilmişdir və o hüquq Konstitusiyada hələ 2009-cu ildə təsbit olunmuşdur. Lakin bunun tətbiqi üçün hazır bir maddə olmadığından, onun əsasında cari qanunvericilikdə də düzəliş edilməli və yeni qanun müddəaları da qəbul olunmalı idi. Lakin hansısa səbəbdən məsələ o zaman çox uzandı və o konstitusion hüququn tətbiqi qaydası ilə bağlı qanun uzun müddət qəbul olunmurdu.

Bizim, Respublikaçı Alternativ Partiyasının isə o zaman hələ heç bir qeydiyyatı da yox idi, 2018-ci il idi. Biz bir neçə qanun layihəsini hazırlayıb, vətəndaşların qanunvericilik təşəbbüsü hüququnun gerçəkləşdirilməsi hüququndan yararlanmaq üçün imzalar topladıq. Təbii ki, qanun olmadığından, biz hansı isə rəsmi bir prosedurdan keçmədik – nə blanklar, nə də protokollar var idi. Ofis şəraitində A4 formatında çap etdik. Amma gerçək imzalar yığdıq və Milli Məclisə layihələr təqdim etdik. Biz düşündük ki, o qanunvericilik təşəbbüsü hüququ özü bəlkə də heç gerçəkləşmədi, amma heç olmasa, bir xatırlatma olaraq o konstitusion hüququn tətbiqi ilə bağlı qanun qəbul oluna bilər. Çox yaxşı ki, o qanun qəbul olundu. Mən indi bilmirəm, öz payımıza, partiyamızın payına bunu deməyin yeri varmı, ya yox? Amma hər halda bir təsəlli olaraq biz düşünürük ki, bizim partiyamızın da vətəndaş təşəbbüskarlığı baxımından bu məsələdə rolu oldu.

Amma mən bunu həm də ona görə xatırladıram ki, imza toplamaq çox ağır bir işdir. Seçkilərdə biz namizəd olaraq imzaları toplayırıq. Amma birincisi, öz dairəmizdə, o imzaların sayı da çox azdır. Amma ölkə miqyasında qanunvericilik təşəbbüsü hüququnu gerçəkləşdirmək üçün minlərcə imza toplamaq – 40 min imza çox ağır bir işdir. Ona görə o hüququn həm də elektron formatda gerçəkləşdirilməsini nəzərdə tutan bu layihəni mən xüsusi ilə dəstəkləyirəm. Ümid edirəm ki, vətəndaşlarımız bu hüquqdan gələcəkdə yararlana biləcəklər.

İctimai dinləmələr məsələsində də aydındır, burada da söyləndi və dəfələrlə vurğulandı ki, hörmətli xanım sədr, Sizin sayənizdə, – mən artıq sayını çoxdan itirmişəm, – nə qədər dinləmə olub, onun bir xeylisində mən də iştirak etmişəm. Vətəndaş cəmiyyətinin nümayəndələri də gəlib sözlərini deyə bilirlər. Amma o sahədə də elektronlaşmanın, heç şübhəsiz, öz faydası ola bilər. Xüsusi ilə nəzərə alsaq ki, iştirakçıların sayı çox olacaqsa, zaman məhdudluğu, yaxud da başqa yerdə olma səbəbindən insanlar öz fikirlərini söyləmək üçün ictimai iştirakçılığı həm də elektron qaydada gerçəkləşdirə, o hüquqdan yararlana bilərlər.

Uzun danışdımsa, üzr istəyirəm. Layihənin lehinə səs verirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət müəllim, yazılmısınız. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, mən də düşünürəm ki, çox vacib bir qanun layihəsini biz müzakirə edirik. İctimai iştirakçılıq, Azərbaycan cəmiyyətində ictimai dinləmələrin keçirilməsi, hər şeydən öncə, mənə elə gəlir ki, müvafiq sahə üzrə hüquqi maariflənməyə, vətəndaşlarımızın hüquqi savadlılığının artmasına xidmət edir. Eyni

zamanda, vətəndaş cəmiyyəti institutlarının qanunvericilik orqanları ilə sıx təmasına gətirib çıxarır.

Əlbəttə, çox sevindirici haldır ki, son dövrlərdə, hörmətli xanım sədr, Azərbaycan Respublikası Milli Məclisində belə dinləmələr çox sayda keçirilir və burada ən aktual mövzulara, ən aktual məsələlərə toxunulur. Ona görə də, əlbəttə, bunun virtual, yaxud elektron modelinin formalaşdırılması da bu günün zəruriyyətlərindən biridir.

Ancaq burada çox hörmətli hüquqşünasımız, millət vəkili həmkarımız Erkin müəllim qeyd etdi. Məsələ nədir? Qanun yaradıcılığı necə baş verir və bunun proseduru necədir?

Şübhəsiz ki, qanun dövlət tərəfindən müəyyənləşdirilmiş ümumi məcburi davranış qaydasıdır. Qanun yaratmaq təşəbbüsü o zaman ortaya çıxır ki, bu, çoxsaylı vətəndaşların sosial sifarişinə çevrilir. Hər hansı ictimai münasibətlərin tənzimlənməsi zamanı burada bir kütləvilik lazımdır. Əks təqdirdə, maraq qrupları öz lehinə qanunlar qəbul etdirə bilərlər. Bu isə digər daha böyük maraq qruplarının maraqları ilə toqquşduğu üçün artıq bu, qanun kimi mahiyyətini itirə bilər və heç kəs bu qanunu məcburi davranış qaydası hesab etməz.

Ona görə, mən düşünürəm, bizim qanunvericilikdə müəyyənləşdirilmiş imzaların sayı yetərincədir və hətta orada regional bölgü də çox vacibdir ki, görək cəmiyyət, bütün regionlar üzrə bu hadisə ictimai sifarişdir, yoxsa deyil.

Ona görə mən, sadəcə, fikirlərimi bildirmək istədim və düşünürəm ki, bu qanun layihəsi olduqca vacib bir qanun layihəsidir. Səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış edən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, media nümayəndələri. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunmaq üçün Elm və təhsil komitəsinə daxil olmuşdur. Məlum olduğu kimi, təhsil müəssisələrində vahid yanaşmanın tətbiqi tədris prosesinə diqqətin yönəldilməsinə, təhsil mühitinə uyğun olmayan və diqqəti yayındıra biləcək vizual elementlərin minimuma endirilməsinə xidmət edir. Təhsil müəssisələrində tətbiq olunan yanaşmalar cəmiyyətin qəbul etdiyi etik davranış normaları, milli-mənəvi dəyərlər və müasir təhsil prinsipləri ilə uzlaşmalıdır. Təhsil müəssisələrində geyimlərlə bağlı vahid yanaşmanın tətbiqi dünyanın bir çox ölkələrində qəbul edilmiş təcrübə olmaqla yanaşı,

təhsil mühitində peşəkar atmosferin formalaşdırılmasının mühüm elementlərindən biri hesab olunur.

Azərbaycan dövləti ümumi təhsil müəssisələrində vahid yanaşmanın formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Məktəbdaxili nizam-intizamın və təşkilati mühitin gücləndirilməsi təhsil siyasətinin əsas istiqamətlərindəndir. Vahid geyim tələbləri kollektivə aidlik, məsuliyyət və məktəb kimliyi hissinin formalaşmasına müsbət təsir göstərir.

Məktəb təkcə bilik verən məkan deyil, həm də cəmiyyətin gələcəyini formalaşdıran, uşaqları və gəncləri birgə yaşamağa hazırlayan mühüm sosial institutdur. Vahid məktəbli forması və geyim tələbləri sosial-iqtisadi fərqlərin görünən təzahürlərinin qarşısını almağa, həmçinin ayrı-seçkilik risklərini azaltmağa imkan yaradır. Bu, yalnız geyim məsələsi deyil, həm də təhsil fəlsəfəsi və sosial adaptasiya məsələsidir. Təhsil müəssisələrində daxili nizam-intizam qaydalarına riayət olunması bütün şagirdlər və valideynlər üçün vacibdir. Məktəb müəllimlərinin vahid tələblərə uyğun geyinməsinin həm təşkilati, həm pedaqoji, həm də idarəetmə baxımdan müsbət təsirləri vardır. Şagirdlər vahid məktəbli formasını geyinirlərsə, müəllimlər üçün də müəyyən edilmiş geyim tələbləri məktəbin ümumi korporativ mədəniyyətinin tərkib hissəsi, daxili qaydalara hörmətin göstəricisi kimi qəbul edilməlidir. Müəllimin geyimi onun peşə fəaliyyətinə mane olmamalı, şagirdlərin diqqətini yayındırmamalı, eyni zamanda, onlarda geyim mədəniyyətinə, üsluba və müxtəlif situasiyalara uyğun geyim seçiminə dair düzgün təsəvvür formalaşdırmalıdır.

Təhsil mühitində tətbiq olunan qaydaların səmərəli icrası məktəb və ailə arasında əməkdaşlığın gücləndirilməsini tələb edir. Valideynlərin

həmin prosesə dəstəyi uşaqların məktəb mühitinə uğurlu adaptasiyasına mühüm töhfə verir.

Hörmətli xanım sədr, “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dövlət siyasətinin millilik və dünyəvilik prinsipləri əsasında həyata keçirilməsinin daha da gücləndirilməsi məqsədi ilə qanun layihəsində bir sıra məsələlərin tənzimlənməsi nəzərdə tutulur. Belə ki, qanun layihəsinin 12.13-cü maddəsinə əlavə edilən yeni müddəaya əsasən dövlət ümumi təhsil müəssisələrində təhsilverənlər üçün geyim ilə bağlı tələblərin müəyyən edilməsi, belə deyək, təsdiq olunur. Həmin tələblərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulur. Hazırda dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar üçün vahid geyim formaları tətbiq olunur. Həmin baxımdan, qanun layihəsinə əlavə edilən yeni 24.2.2-1-ci maddəyə əsasən təhsilalanların geyim forması ilə bağlı müəyyən olunmuş tələblərə riayət edilməsinin valideynlərin və ya digər qanuni nümayəndələrin vəzifəsi kimi müəyyənləşdirilməsi təklif olunur.

Hörmətli xanım sədr, qanun layihəsi Elm və təhsil komitəsində geniş müzakirə olunmuş və plenar iclasın müzakirəsinə tövsiyə olunmuşdur. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, səsə qoymaq fikri var. Erkin müəllim, Sizin sualınız var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən səsə qoyacağam indi bunu. Sualınız, təklifiniz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ümumi bir fikir var ki, səsə qoyaq. Xahiş edirəm, suala sonra işçi qaydada baxarsınız. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Erkin müəllim, Anar müəllimlə sonra müzakirə edərsiniz.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 4 məsələ qalır və məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. Gündəliyin 11-ci məsələsi Cinayət-Prosessual Məcəllədə, Cəzaların İcrası Məcəlləsində və “İcra haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Qanunvericilikdə təklif edilən dəyişikliklər təqsirləndirilən şəxs olmayan, lakin əmlakı üzərində həbs qoyulması barədə qərarla qanuni mənafelərinə toxunulan şəxslərlə bağlı prosessual qaydaların təkmilləşməsini nəzərdə tutur. Bu layihə ilə bağlı birinci oxunuşda geniş məruzə edilib. Deputat həmkarımız hörmətli Vasif Qafarovun layihə ilə bağlı müəyyən təklifləri oldu və xanım sədr, Sizin tapşırıq və tövsiyənizə müvafiq olaraq, deputat həmkarımızla məsələni işçi

qaydada müzakirə etmişik. Xahiş edirəm, məsələ ilə bağlı heç bir əlavə və təklifin olmadığını nəzərə alaraq, olduğu kimi səsə qoyasınız. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb, mən səsverməyə keçirəm. Qanun layihəsində üç maddə var, mən onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni mən səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.27 dəq.)

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. Bu, Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu

komitəsində baxılmışdır. Yenə də komitənin üzvü Bəhruz Məhərrəmov bizə məlumat verəcək. Buyurun, Bəhruz müəllim.

**Bəhruz Məhərrəmov**. Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Cinayət-Prosessual Məcəllədə dəyişiklik layihəsi məhkəməyədək sadələşdirilmiş icraatla bağlı bəzi prosessual müddətlərin artırılmasını, bəzi maddələrdə "şikayət" sözünün "məlumat" sözü ilə əvəzlənməsini, habelə, aidiyyəti prosessual sənədlərdə hüquqi şəxsə dair müvafiq məlumatların göstərilməsini nəzərdə tutur. Qeyd olunan məsələlərin hər biri ilə bağlı birinci oxunuşda geniş məlumat verilib. İkinci oxunuş üçün heç bir təklif daxil olmadığını nəzərə alaraq, layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bu da ikinci oxunuşda olan qanun layihəsidir. Xahiş edirəm, əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb, maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsində 11 maddə var. Mən onları əvvəlcə dörd-dörd səsə qoyacağam, 3 maddəyə isə ayrı-ayrılıqda səs verəcəyik. Xahiş edirəm, ilk 4 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bunlar qəbul edildi.

Növbəti 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

3 maddəmiz qalır, mən onlara da münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Zahid müəllimə söz verəcəyəm. Zahid müəllim, Siz iclası keçirdiniz, çox sağ olun. Çox geniş bir formatda. Keçən dəfə biz demişdik, müxtəlif komitələrin nümayəndələri də orada idi. Mən düşünürəm, faydalı oldu. Buyurun, Zahid müəllim.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, çox qısa olaraq məlumat verməyə çalışacağım. Müzakirənizə təqdim olunan “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşu, o cümlədən, hörmətli sədr, qeyd etdiyiniz kimi, ictimai dinləmələr çox faydalı oldu və parlamentin uşaqların rəqəmsal təhlükəsizliyi ilə bağlı vahid və prinsipial mövqeyini cəmiyyətimizə nümayiş etdirdi.

Ötən iclasda çıxış edən Milli Məclis sədrinin müavini hörmətli Musa Qasımlı, millət vəkilləri Azay Quliyev, Kamal Cəfərov, Fariz İsmayılzadə, Əminə Ağazadə, Elçin Mirzəbəyli və hörmətli sədr, Sizin təklifinizlə, tövsiyənizlə komitə iclasına qatılan dəyərli Əhliman Əmiraslanov və Anar İsgəndərov qanunvericilik təşəbbüsünü cəmiyyətimizdən gələn mühüm milli çağırış kimi dəyərləndirdilər, məktəblərdə rəqəmsal savadlılıq və media təhlükəsizliyi dərslərinin keçirilməsinin vacibliyini vurğuladılar, saxta məlumatların tanınması və bu istiqamətdə bir çox səmərəli ideyalarını, baxışlarını irəli sürdülər. Uşaqlar üçün keyfiyyətli milli filmlərin, animasiyaların, elmi-populyar proqramların, elektron kitabxanaların və təhlükəsiz Azərbaycandilli rəqəmsal platformaların yaradılması vacib sayıldı.

Birinci və ikinci oxunuşlarda parlamentdəki müzakirələr, eyni zamanda, bir beynəlxalq nümunə bizim haqlı mövqeyimizi növbəti dəfə təsdiqlədi. İyunun 15-də Britaniyanın Baş naziri Kir Starmer hökumətin 16 yaşdan aşağı uşaqların sosial mediaya çıxışını qadağan edən qərarını imzaladı. Britaniya “Snapchat”, “TikTok”, “YouTube”, “Instagram”, “Facebook” və “X” kimi sosial platformalara qarşı sərt mövqeyini, yəni məhdudiyyət tədbirini gerçəkləşdirdi. Baş nazirin bununla bağlı iyunun 15-də canlı yayımda xalqa müraciətindən kiçik bir iqtibas etmək istəyirəm. Bununla da yekunlaşdıracağam. “Qərar dünyanın ən güclü şirkətlərinin müqaviməti ilə qarşılaşa bilər, lakin biz geri çəkilməyəcəyik. Bir valideyn və Baş nazir kimi bunun davam etməsinə icazə verə bilmərəm, uşaqlarımız daha yaxşısına layiqdirlər”. Ona görə də ümidvarıq ki, parlament ikinci oxunuşda da uşaqlarımızın, əslində, mənəvi, psixoloji, elmi, bir sözlə, gələcəyimizin

qorunmasına xidmət edən və zəfər nəslini formalaşdırmağın ideyasını əsas götürən bu layihəyə səs verəcəkdir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Mədəniyyət komitəsindən heç kim yox idi? Yoxsa dəvət etməmişdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Niyə? Sizdən soruşuram. Mən o gün dedim ki, özünüz də təşəbbüs göstərin. Mədəniyyət sahəsi elə informasiyadan çox bəhrələnir. Oldu. Çox sağ olun, Zahid müəllim. İclasınız çox yüksək səviyyədə keçirildi. Mən bir az baxdım, ancaq hamısını görmədim. Ona görə soruşuram.

Bu məsələyə daha iki komitədə baxılmışdır. Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılmışdır. Hicran xanım, indi mən sözü Sizə verirəm. Hicran Hüseynova, komitə sədri. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsinin birinci oxunuşda qəbul edilməsindən sonra məsələ daha aktiv şəkildə müzakirə olunmağa başladı və müvafiq dövlət qurumları və vətəndaş cəmiyyəti tərəfindən müxtəlif tədbirlər keçirildi. Mediada bir çox yazılar, məqalələr və şərhlər də çap olundu, münasibətlər bildirildi. Bütün bunlar göstərdi ki, cəmiyyət belə bir hüquqi tənzimləməni dəstəkləyir və buna çox böyük ehtiyac var. Mən qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik

edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi ilə bağlı bizim komitədə də əlavə rəy və təklif olmayıb. İkinci oxunuşda da baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım.

Bir komitədə də baxılıb. Bildiyiniz kimi, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində. Əli müəllim, buyurun, komitənin rəyini bildirin. Əli Hüseynli, komitə sədri. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Bizim üzərimizə düşən vəzifə – İnzibati Xətalar Məcəlləsində artıq təqdim olunmuş məhdudiyyətlərlə, bu tələblərin pozulması ilə bağlı cərimə sanksiyaları nəzərdə tutulurdu. Hesab edirik ki, bu sanksiyalar tam həmin inzibati xətaya adekvatdır, rəyimiz müsbətdir, nəzərə alınmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, hələ icazə verin, əsas kimi qəbul edək. Mən qanun layihəsini əsas kimi səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Təklif var, səsə qoyaq. Nizami müəllim, Vasif müəllim, təkid etmirsiniz ki? Nizami müəllim, özü də komitənin üzvüsünüz. Düzdür?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsinin səsverməsinə keçirik, maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağım. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

3-cü və 4-cü maddələri mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Hörmətli həmkarlar, düzdür, biz buradan danışanda siz bizi yaxşı eşidirsiniz. İnandırım, sizin də danışıqlarınız burada elə eşidilir. Xahiş edirəm, burada təkcə akustika məsələsi deyil, bir az diqqətli olun. Bax, orada danışdıqlarınız, inandırım sizi, hər şey eşidilir. Kim niyə iclasa gəlmir, kim necə olur və sair.

Hörmətli həmkarlar, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Biz sonuncu məsələyə keçirik. Bu bizim 14-cü məsələmizdir. Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Buyurun, Musa müəllim.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İkinci oxunuşda müzakirənizə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin ata-baba yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşməsini, işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Qanun layihəsinin birinci oxunuşu zamanı təklif olunan dəyişikliklərin mahiyyəti barədə ətraflı məlumat verildiyini və layihənin konseptual olaraq dəstəkləndiyini qeyd edərək, ikinci oxunuşun tələblərinə uyğun olaraq, maddələr üzrə dəyişiklikləri lakonik olaraq diqqətinizə çatdırmaq istəyirəm.

Qanun layihəsi 4 maddədən ibarətdir. Layihənin 1-ci maddəsində Mənzil Məcəlləsinin 91-ci və 92-ci maddələrində dəyişiklik edilir, məcəlləyə 96-1 və 108-1-ci maddələr əlavə olunur. Bu dəyişikliklərlə qanunvericiliyə "işğaldan azad edilmiş ərazilərdə daimi yaşayış fondu" anlayışı gətirilir, yaşayış sahələrinin keçmiş məcburi köçkünlərin mülkiyyətinə verilməsinin hüquqi əsasları yaradılır və qaydaları müəyyən edilir.

Qanun layihəsinin 2-ci maddəsi üzrə "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin üçüncü hissəsində dəyişiklik və əlavə təklif olunur. Bu dəyişiklik məcburi köçkün statusunun itirilməsi hallarını konkretləşdirir. Qanunun yeni redaksiyası statusun aşağıdakı hallarda itirilməsini müəyyən edir.

Şəxs əvvəlki yaşadığı yerə qayıtdıqda, əvvəlki yaşayış yerinin əvəzinə həmin regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvəzsiz təmin olunduqda.

Bu, mümkün olmadıqda dövlətin xüsusi qərarı ilə müəyyənləşdirilmiş səviyyədə yaşayış yeri ilə təmin olunduqda.

Şəxs yuxarıdakı şərtlərlə bağlı ona edilən bütün təkliflərdən imtina etdikdə.

Bu dəyişikliklər həm şəxsin məcburi köçkün statusunun itirilməsini onun mülkiyyət hüququ əldə etməsi ilə şərtləndirir, eyni zamanda, əsassız

olaraq dövlətin resurslarından sui-istifadə edilməsi meyllərinin qarşısını almaqla üçüncü şəxslərin də hüquqlarının müdafiəsinə xidmət edir.

Qanun layihəsinin 3-cü maddəsi "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsini özündə ehtiva edir. Bu qanunun 3-cü maddəsində edilən dəyişikliyə görə şəxsin məcburi köçkün statusunu itirdiyi gündən sonrakı 3 il müddətində bütün güzəşt və imtiyazları saxlanılır. Bu dəyişiklik həm dövlət büdcəsinin planlaşdırılması, həm də vətəndaşların öz hüquqi vəziyyətinin öncədən müəyyənləşdirilməsi baxımından əhəmiyyət kəsb edir.

Qanun layihəsində nəzərdə tutulan 4-cü dəyişiklik "Keçid müddəaları" adlanır. Bu qanun qüvvəyə minənədək əvvəlki yaşayış yerinin əvəzinə işğaldan azad edilmiş ərazilərdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edilmiş məcburi köçkünlərin hüquq və imtiyazlarının, habelə onların təhsil hüququnun təmin edilməsi müddətini müəyyən edir.

Qanun layihəsi Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə olunmuş və ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Layihənin mətnində dəyişiklik yoxdur, səsə qoymağınızı və dəstəkləməyinizi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə daha iki komitədə baxılıb. Birinci komitə İnsan hüquqları komitəsidir. Ona görə də komitənin sədri Zahid müəllimə söz verirəm. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Layihənin üç komitə ilə birgə, o cümlədən plenar iclasda biz geniş təqdimatını etmişdik. Layihəni parlament tariximizin, dövlətçilik tariximizin

qürurlu bir aktı adlandırmışdıq. Millətimiz məcburi köçkün və tamhüquqlu vətəndaş statusu deyil, artıq hamısı o bütöv vətəndaşlıq konstitusion haqqını daşımış olur. Ona görə də bu layihəyə qürurla səs verəcəyik. Hər hansı bir əlavə yoxdur, komitə layihənin lehinədir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim.

İkinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Əli Hüseynli. Əli müəllim, buyurun, söz Sizindir.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Təbii ki, bizim də rəyimiz müsbətdir, çünki Mənzil Məcəlləsində məcburi köçkünlərin konstitusion mülkiyyət hüququnun təsbit olunmasının mexanizmləri nəzərdə tutulur. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur deyə, yenə də biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar yoxdur və mən qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirəm. Qanun layihəsi 4 maddədən ibarətdir. İki-iki səsə qoyacağıq. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim iclasımız başa çatdı.

Hörmətli həmkarlar, hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*19 iyun 2026-cı il*

**Anar Məmmədov.** Bu gün müzakirəmizə təqdim olunan Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi ölkəmizin ötən il üzrə iqtisadi və sosial fəaliyyətinin mühüm yekununu özündə əks etdirir. İkinci oxunuşda müzakirə etdiyimiz bu sənəd dövlət vəsaitlərinin nə dərəcədə səmərəli, hədəfli və şəffaf xərcləndiyini qiymətləndirmək üçün əsas mexanizmdir.

2025-ci ilin dövlət büdcəsinin icrası göstərir ki, qlobal iqtisadi çağırışlara və dəyişkənliklərə baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Xüsusi ilə vurğulamaq lazımdır ki, büdcə xərclərinin icrasında sosialyönümlülük prinsipi tam təmin edilmiş, vətəndaşlarımızın rifahının yüksəldilməsi, sosial müdafiə tədbirlərinin maliyyələşdirilməsi prioritet olaraq qalmışdır.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizin bərpası, Böyük Qayıdış proqramının uğurla icrası və ölkəmizin müdafiə qüdrətinin gücləndirilməsi istiqamətində nəzərdə tutulan vəsaitlərin vaxtında və tam

həcmdə ayrılması dövlətimizin strateji hədəflərinə sadiqliyinin bariz nümunəsidir.

Büdcə icrasının müsbət tərəfləri ilə yanaşı, gələcəkdə effektivliyi daha da artırmaq üçün bəzi məqamlara diqqət yetirilməsini məqsədəuyğun hesab edirəm:

- investisiya layihələrinə nəzarət. Dövlət əsaslı vəsait qoyuluşlarının və investisiya layihələrinin icra müddətlərinə və keyfiyyətinə nəzarətin daha da gücləndirilməsi;

- regionların inkişafı. Regionlarda infrastrukturun təkmilləşdirilməsi və yerli gəlir mənbələrinin stimullaşdırılması istiqamətində xərclərin səmərəliliyinin artırılması.

Hesab edirəm ki, təqdim olunan qanun layihəsi ötən ilin iqtisadi reallıqlarını və qarşıya qoyulan vəzifələrin icra vəziyyətini dolğun şəkildə əks etdirir. Hökumətin hesabat dövründəki fəaliyyətini və büdcə vəsaitlərinin idarə edilməsini uğurlu hesab edir və bu qanun layihəsinin lehinə səs verəcəyimi bildirirəm.

**Ceyhun Məmmədov.** İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə növbəti illik toplantısının Azərbaycanda keçirilməsi cənab Prezidentin rəhbərliyi ilə Azərbaycanın son illər əldə etdiyi uğurların daha bir təzahürüdür.

Artıq Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Bir müddət öncə COP29, Ümumdünya Şəhərsalma Forumu (WUF13) kimi beynəlxalq tədbirlərə, ondan əvvəl də bir sıra vacib tədbirlərə – İslam Həmrəyliyi Oyunlarına, “Eurovision” və digər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəmiz növbəti dəfə beynəlxalq və mötəbər bir tədbirə ev sahibliyi etdi.

Nəzərə alsaq ki, bu gün dünyada 60-a yaxın müsəlman ölkəsi var və müsəlman ölkələri arasında bu tədbirə ev sahibliyi etməsi üçün Azərbaycanın seçilməsi onun növbəti bir mühüm uğuru kimi qiymətləndirilməlidir.

Tədbirdə cənab Prezident çıxış edərək çox mühüm məqamlara toxundu. Azərbaycanın iqtisadi gücü, Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rol və digər məsələlər barədə özünün olduqca önəmli və vacib fikirlərini bildirdi.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan uzun illərdir İslam İnkişaf Bankı ilə sıx əməkdaşlıq edir. Bu təşkilat dünyanın ən nüfuzlu beynəlxalq maliyyə korporasiyalarından birinə çevrilib, artıq bütün dünyada qəbul edilən vacib bir maliyyə qurumu kimi xarakterizə olunur və tanınır. Bu baxımdan həmin tədbirə ölkəmizin ev sahibliyi etməsi önəmli məsələ kimi qeyd olunmalı və qiymətləndirilməlidir.

Bu gün Azərbaycanın islam dövlətləri arasında günü-gündən nüfuzu daha da artır, mövqeyi daha da güclənir, daha da möhkəmlənir. O mənada bu cür tədbirlərə ölkəmizin ev sahibliyi etməsi onun həm də nüfuzunun, gücünün göstəricisidir.

Tədbirdə bir çox istiqamətlərdə geniş müzakirələr aparıldı. Bu gün ölkəmizin qarşısında islam bankçılığının inkişafı, halal turizm, halal qida və digər sahələrdə əməkdaşlıq üçün çox geniş imkan və fürsətlər var. Düşünürəm ki, bax, bu tədbirdə də aparılan müzakirələr və çıxışlar ümumi prosesə özünün töhfəsini verəcək, ölkəmizə xarici investisiyanın cəlbi üçün yeni imkan və fürsətlər yaradacaq.

**Heydər Əsədov.** 1993-cü ilin 15 iyun tarixi – Milli Qurtuluş Günü xalqımızın dövlətçilik salnaməsində dönüş nöqtəsi kimi mühüm önəm kəsb

edir. Bu əlamətdar gün respublikamızda ictimai-siyasi sabitliyin bərqərar olunması və gələcək inkişaf prioritetlərinin müəyyənləşdirilməsi baxımından xüsusi ilə əhəmiyyətlidir. O dövrdə mürəkkəb proseslər fonunda ölkəmizin gələcəyi şübhə altında idi. Məhz belə bir ağır şəraitdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası dövlətçiliyin məhv olmaq təhlükəsinin qarşısını almış və misilsiz inkişaf yolunun təməlini formalaşdırmışdır.

1969–1982-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət respublikanın sosial-iqtisadi yüksəlişində mühüm rol oynamışdır. Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi illərdə xalqın rifahının yaxşılaşdırılması, milli maraqların qorunması və iqtisadi potensialın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Məqsədyönlü siyasət nəticəsində sənaye müəssisələrinin fəaliyyəti genişləndirilmiş, yeni istehsal sahələri yaradılmış, kənd təsərrüfatında məhsuldarlıq artmış və ölkəmizin iqtisadi imkanları əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. Bununla yanaşı, elm, təhsil və mədəniyyət sahələrinə göstərilən diqqət intellektual potensialın formalaşmasına və gələcək dövlət quruculuğu prosesinə mühüm töhfə vermişdir. Minlərcə gəncin keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi gələcək inkişaf üçün güclü peşəkar kadr bazasının yaranmasına şərait yaratmışdır. Ümummilli Liderin uzaqgörən siyasəti sonrakı illərdə müstəqil dövlət quruculuğu prosesinə və dövlətçilik ənənələrinin möhkəmlənməsinə təkan vermişdir.

1990-cı illərin əvvəllərində respublikada ağır siyasi böhran hökm sürürdü. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqların işğala məruz qalması, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün

vəziyyətinə düşməsi ölkədə vəziyyəti daha da ağırlaşdırmışdı. Eyni zamanda, daxili qarşıdurmalar, hakimiyyət uğrunda mübarizə, separatizm meylləri və idarəetmədəki xaos dövlət müstəqilliyinə ciddi təhlükə yaradırdı. O dövrdə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəmizin taleyində həlledici rol oynadı. 1993-cü il iyunun 15-də Ümummilli Liderin Azərbaycan Ali Sovetinin sədri seçilməsi dövlətçiliyin xilası və milli birliyin təmin olunması baxımından tarixi hadisəyə çevrildi. Məhz buna görə də həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ilk növbədə ölkəmizdə sabitliyin təmin olunması istiqamətində mühüm addımlar atıldı. Dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alındı, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, hüquq mühafizə orqanlarının fəaliyyəti gücləndirildi və dövlət idarəçiliyində vahid nəzarət sistemi formalaşdırıldı. Cəmiyyətdə milli həmrəylik və vətəndaş birliyi möhkəmləndirildi, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl islahatlara başlanıldı. Ümummilli Lider Heydər Əliyev dövlət quruculuğunun bütün istiqamətlərində sistemli siyasət həyata keçirdi. Məhz həmin sabitlik sonrakı illərdə iqtisadi yüksəlişin, beynəlxalq nüfuzun artmasının və güclü dövlət modelinin formalaşmasının əsasını təşkil etdi.

Ümummilli Liderin təşəbbüsü ilə 1994-cü il mayın 12-də Ermənistan ilə atəşkəs sazişi imzalandı. Bununla yanaşı, iqtisadi dirçəliş və beynəlxalq əməkdaşlıq üçün əlverişli şərait formalaşdı. Peşəkar və nizami ordunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirildi, hərbi idarəetmə sistemi təkmilləşdirildi, şəxsi heyətin hazırlıq səviyyəsinin artırılmasına xüsusi diqqət yetirildi. Sonrakı illərdə qazanılan tarixi

qələbələrin əsasında da məhz həmin dövrdə qoyulmuş güclü ordu quruculuğu siyasəti dayanırdı.

1994-cü il sentyabrın 20-də imzalanmış beynəlxalq neft sazişi – “Əsrin müqaviləsi” ölkənin iqtisadi inkişafında yeni mərhələnin başlanğıcı oldu. Dünyanın aparıcı enerji şirkətləri ilə imzalanan bu saziş dövlətimizin iqtisadi potensialını gücləndirməklə yanaşı, beynəlxalq münasibətlər sistemində mövqeyini də əhəmiyyətli dərəcədə möhkəmləndirdi. Xarici investisiyaların cəlb olunması, enerji layihələrinin həyata keçirilməsi və neft strategiyasının formalaşdırılması ölkənin uzunmüddətli inkişaf konsepsiyasını müəyyənləşdirdi. “Əsrin müqaviləsi” nəticəsində enerji resurslarının dünya bazarlarına çıxarılması təmin edildi, yeni nəqliyyat və enerji marşrutları formalaşdı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində bazar iqtisadiyyatına keçid təmin olundu, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradıldı və geniş islahatlara başlanıldı. Məqsədyönlü tədbirlər iqtisadi sabitliyin möhkəmlənməsinə, investisiya mühitinin yaxşılaşmasına və maliyyə imkanlarının genişlənməsinə şərait yaratdı. Eyni zamanda, əhalinin sosial rifahının yüksəldilməsi, yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması, təhsil və səhiyyə sistemlərinin müasirləşdirilməsi, habelə regionların inkişafı istiqamətində mühüm layihələr reallaşdırıldı. İnfrastrukturun yenilənməsi, kənd təsərrüfatına dövlət dəstəyinin artırılması və insan kapitalının inkişafına yönəlmiş tədbirlər ölkənin davamlı inkişafı üçün möhkəm zəmin formalaşdırdı və sonrakı illərin uğurlu inkişaf strategiyasının əsasını təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət strategiyası milli maraqların qorunmasına, dövlət müstəqilliyinin

möhkəmləndirilməsinə və ölkəmizin beynəlxalq mövqeyinin gücləndirilməsinə hesablanmışdı. Müstəqilliyin ilk illərində mövcud olan mürəkkəb geosiyasi şəraitə baxmayaraq, həyata keçirilən uzaqgörən və praqmatik diplomatik kurs nəticəsində dövlətimiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmağa başladı. Balanslaşdırılmış xarici siyasət xətti müxtəlif dövlətlərlə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin formalaşdırılmasına imkan yaratdı.

Beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi, diplomatik münasibətlərin genişləndirilməsi və milli maraqlara əsaslanan siyasi kursun həyata keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verdi. Xarici siyasətdə milli maraqların prioritet kimi müəyyən olunması dövlətimizin beynəlxalq arenada mövqelərinin möhkəmlənməsini təmin etdi. Regional və qlobal layihələrdə fəal iştirak nəticəsində ölkəmiz beynəlxalq əməkdaşlıq proseslərinin vacib aktorlarından birinə çevrildi.

Enerji və nəqliyyat layihələrinin uğurla reallaşdırılması da xarici siyasət strategiyasının əsas istiqamətlərindən biri idi. Xəzərin enerji resurslarının dünya bazarlarına çıxarılması, beynəlxalq enerji marşrutlarının formalaşdırılması və mühüm nəqliyyat dəhlizlərinin yaradılması ölkəmizin geostrateji əhəmiyyətini daha da artırdı. Bu siyasət nəticəsində dövlətimiz regionda etibarlı tərəfdaş və mühüm tranzit mərkəzi kimi mövqeyini gücləndirdi. Eyni zamanda, beynəlxalq iqtisadi əməkdaşlıq imkanları genişləndi, ölkəmizin siyasi və iqtisadi nüfuzu əhəmiyyətli dərəcədə artdı.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində dövlətimizin siyasi, iqtisadi və hərbi gücü daha da artıb, beynəlxalq mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənib.

Xüsusi ilə 2020-ci ilin 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər xalqımızın milli birlik və həmrəyliyinin parlaq nümunəsinə çevrilib. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz uzun illər işğal altında qalmış torpaqları azad edib və tarixi ədalət bərpa olunub. Bu qələbə xalqımızın milli qürur mənbəyinə çevrilərək dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri olub.

2023-cü ildə həyata keçirilən birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin olunub. Bununla da uzun illər davam edən separatizmə son qoyulub və dövlət suverenliyi bütün ərazilərdə bərpa edilib. Bu tarixi nailiyyətlər Ulu Öndərin əsasını qoyduğu güclü dövlətçilik siyasətinin, milli birlik strategiyasının və ordu quruculuğu modelinin məntiqi nəticəsi kimi dəyərləndirilir. Bu gün azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, müasir infrastrukturun yaradılması dövlətimizin qüdrətini və inkişaf potensialını nümayiş etdirir.

Milli Qurtuluş Günü həm də bugünkü uğurların əsasını təşkil edən tarixi mərhələdir. 15 iyun xalqımızın xilası, dövlətçiliyimizin qorunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından tarixi əhəmiyyətə malikdir. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində formalaşan güclü dövlətçilik ənənələri bu gün də ölkəmizin uğurlu gələcəyini təmin edən əsas amillərdən biri olaraq qalır. Milli qurtuluşun yaratdığı siyasi sabitlik, milli birlik və inkişaf strategiyası müasir uğurlarımızın fundamental əsasını təşkil edir və gələcək nəsillər üçün mühüm dövlətçilik məktəbi kimi böyük əhəmiyyət daşıyır.

**Jalə Əliyeva.** Ölkəmiz yenə də çox mühüm beynəlxalq tədbirə – İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarına ev sahibliyi edir. Toplantıların Bakı şəhərində təşkili Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, ölkəmizin regional və beynəlxalq tərəfdaşlıqlarının möhkəmlənməsinə, islam maliyyə institutları ilə əməkdaşlığın genişlənməsinə, iqtisadi və investisiya potensialının tanıdılmasına müsbət töhfədir.

Tədbirin açılış mərasimində iştirak və çıxış edən Prezident İlham Əliyev toxunduğu məqamlarla Azərbaycanın iqtisadi gücünü, beynəlxalq nüfuzunu və gələcəyə yönəlmiş inkişaf strategiyasını bir daha bəyan etmiş oldu.

Dövlət başçısı çıxışında Azərbaycanın son illərdə əldə etdiyi iqtisadi nailiyyətlərdən danışaraq sabit inkişaf yolunda inamla irəlilədiyimizi vurğuladı. Prezident qeyd etdi ki, Azərbaycan əlverişli investisiya mühiti və güclü makroiqtisadi göstəriciləri ilə regionun aparıcı iqtisadi mərkəzlərindən birinə çevrilib.

Çıxışın əsas məqamlarından biri regional əməkdaşlıq və inteqrasiya məsələsi oldu. Prezident İlham Əliyev Azərbaycanın müxtəlif regionları birləşdirən mühüm nəqliyyat və logistika qovşağına çevrildiyini vurğulayaraq dedi: “Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən etibarlı körpü rolunu oynayır”.

Enerji təhlükəsizliyi məsələsinə toxunan dövlət başçısı Azərbaycanın uzun illərdir beynəlxalq tərəfdaşları üçün etibarlı enerji təchizatçısı olduğunu qeyd etdi, yaşıl enerji sahəsində həyata keçirilən layihələrin ölkənin inkişaf gündəliyində xüsusi yer tutduğunu vurğuladı. Prezidentin

ifadə etdiyi kimi, “yaşıl enerji Azərbaycanın gələcək inkişaf prioritetlərindən biridir”.

Prezident İlham Əliyev çıxışında işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinə də geniş yer ayıraraq vurğuladı ki, Qarabağ və Şərqi Zəngəzur dünyanın ən böyük yenidənqurma layihələrindən birinin həyata keçirildiyi məkanlardan biridir. Onun sözləri ilə desək, “biz azad edilmiş torpaqları yenidən qurur, insanları doğma yurdlarına qaytarırıq”. Bu proses təkcə infrastrukturun bərpası deyil, həm də sosial ədalətin və tarixi haqqın bərpasıdır.

Çıxış zamanı İslam İnkişaf Bankı ilə əməkdaşlığın əhəmiyyətinə də xüsusi diqqət çəkildi. Prezident qeyd etdi ki, Azərbaycan ilə bank arasında uzun illər ərzində formalaşmış tərəfdaşlıq enerji, infrastruktur, kənd təsərrüfatı və sosial sahələrdə mühüm layihələrin həyata keçirilməsinə imkan yaradıb. Bu əməkdaşlıq nəticəsində ölkəmizdə çoxsaylı layihələr reallaşdırılıb və yeni təşəbbüslər üçün geniş perspektivlər açılıb.

Bir daha qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin çıxışı Azərbaycanın müasir inkişaf modelinin, güclü iqtisadi potensialının və beynəlxalq əməkdaşlığa sadiqliyinin növbəti təqdimatı olmaqla bərabər, regional inteqrasiyanın, dayanıqlı inkişafın və qarşılıqlı faydalı əməkdaşlığın təşviqində Azərbaycanın mühüm rol oynayan güclü dövlət olmaq faktorunu da bir daha ön plana çəkdi.

**Kamran Bayramov.** Dünən Bakı şəhəri növbəti dəfə qlobal və regional əhəmiyyətli mötəbər bir platformaya – İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarına ev sahibliyi edib.

Bu tarixi hadisə, sadəcə, ölkəmizin deyil, bütövlükdə, Cənubi Qafqaz regionunun iqtisadi və strateji xəritəsində yeni bir səhifə açır. Tədbirin builki

əsas şüarının “Davamlı tərəqqi üçün regional inteqrasiya” olduğu da təsadüfi seçilməyib. Çünki bu mötəbər toplantının məhz paytaxtımızda keçirilməsi ölkəmiz və regionumuz üçün real və əhəmiyyətli üstünlüklər yaradır.

Birincisi, bu tədbir Azərbaycanın islam dünyasındakı liderlik missiyasını və beynəlxalq nüfuzunu möhkəmləndirir. COP29-dan və WUF13-dən sonra Bakının belə bir elitar maliyyə sammitinə ev sahibliyi etməsi ölkəmizin qlobal iqtisadi və maliyyə idarəetməsində etibarlı tərəfdaş və mühüm bir mərkəz olduğunu yenidən sübut etdi.

İkincisi, 57 üzv ölkənin nazirlərini, bank-maliyyə strukturlarının rəhbərlərini və özəl sektor nümayəndələrini bir araya gətirən bu toplantı ölkəmiz üçün iqtisadi dividend və investisiya axınına əlverişli şərait yaratdı. Bu isə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrinin “yaşıl enerji” zonasına çevrilməsi və “ağıllı şəhər” layihələrinin maliyyələşdirilməsi üçün alternativ, faizsiz və güzəştli investisiya mənbələri deməkdir.

Üçüncüsü və bəlkə də ən vacibi regional inteqrasiya və Orta Dəhliz layihəsinin gücləndirilməsidir. İslam İnkişaf Bankının bu toplantısı Cənubi Qafqazı Asiya ilə Avropa, eləcə də islam dünyası arasında dayanıqlı bir logistika və enerji qovşağına çevirir. Regional enerji dəhlizlərinin qurulması, transsərhəd infrastruktur layihələrinin reallaşdırılması təkcə Azərbaycanın deyil, qonşu dövlətlərin və gələcəkdə regionun digər aktorlarının da iqtisadi təhlükəsizliyini təmin edəcək, ticarət əlaqələrini şaxələndirəcək, yeni iş yerlərinin yaradılmasına yol açacaq.

Bu toplantı, sadəcə, bir neçə günlük müzakirə paneli deyil, islam dünyasının nəhəng kapitalının Cənubi Qafqaza yönəldilməsi, regionda sabitliyin, dayanıqlı inkişafın və rifahın bərqərar olunması üçün strateji bir

sıçrayış nöqtəsidir. Azərbaycan isə bu missiyanın mərkəzində durmağa və onu tam həcmdə reallaşdırmağa hazır olduğunu bir daha nümayiş etdirdi.

**Könül Nurullayeva.** Müzakirə etdiyimiz 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi öz məntiqi başlanğıcını 15 İyun – Milli Qurtuluş Günündən, onun təbii davamı olan tarixi Zəfərimizdən və bu qələbənin rəmzi olan Şuşa Bəyannaməsindən alır.

Dövlət büdcəsi ali maliyyə sənədi kimi ölkənin iqtisadi kursunu müəyyən edir. 2025-ci ilin büdcə icrasının təhlili göstərir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş iqtisadi siyasət uğurla həyata keçirilmiş, müvafiq dövlət strukturları nəzərdə tutulan vəzifələrin icrasında fəal iştirak etmişlər. Büdcə sisteminin səmərəliliyini əks etdirən göstəricilər bir daha sübut edir ki, Azərbaycan 2025-ci ildə də düzgün maliyyə strategiyasını davam etdirmişdir.

Ölkəmizdə əldə olunan iqtisadi artım son illərin dinamik inkişaf strategiyasının məntiqi nəticəsidir. Təqdim olunan qanun layihəsi bilavasitə sosial rifahın artırılmasına, sabitliyin qorunmasına və davamlı inkişafa xidmət edir. Qeyd etmək lazımdır ki, 2025-ci ildə büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, pensiya və müavinətlərin artırılması ilə bağlı dövlət başçısı tərəfindən çoxsaylı sərəncamlar imzalanmışdır. İmzalanmış sərəncamlar, fərmanlar və hazırlanan layihələr insan kapitalının inkişafına, güclü Azərbaycan modelinin təkmilləşməsinə, ölkəmizin bölgədə və dünyada tutduğu mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

2025-ci il dövlət büdcəsinin icrası göstərir ki, vəsaitlər ən vacib sosial sahələrə yönəldilib. Xərclərin strukturu dövlətin insan kapitalına, təhsilə, səhiyyəyə və sosial müdafiəyə verdiyi önəmi açıq şəkildə əks etdirir.

Təhsil sahəsi üzrə xərclər 4,62 milyard manat təşkil edib ki, bunun da 2,31 milyardı ümumi təhsilə, 648,8 milyonu ali təhsilə, 449,8 milyonu məktəbəqədər təhsilə, 100,8 milyonu orta ixtisas təhsilinə, 88,99 milyonu peşə təhsilinə, 18,9 milyonu əlavə təhsilə, 6,9 milyonu isə təhsil sahəsində tətbiqi tədqiqatlara yönəldilib. Təhsil sahəsində digər müəssisə və tədbirlərə ayrılan 998,4 milyon manat da bu sahənin inkişafına verilən önəmi bir daha sübut edir.

Səhiyyə xərclərinə ayrılan 1,28 milyard manatın 775,9 milyonu İcbari tibbi sığorta fonduna yönəldilib ki, bu da əhalinin tibbi xidmətlərə çıxışının genişləndirilməsi baxımından mühüm addımdır.

Sosial müdafiə və sosial təminat sahəsi üzrə xərclər 4,55 milyard manat təşkil edib. Bu məbləğin 1,6 milyardı Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılmasına yönəldilib və beləliklə, pensiyaların, müavinətlərin vaxtında ödənilməsi təmin olunub.

Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və gənclər siyasəti sahələrinə, ümumilikdə, 527,1 milyon manat ayrılıb. Bu məbləğin 223,7 milyonu mədəniyyət və incəsənətə, 72,8 milyonu bədən tərbiyəsi və gənclər siyasətinə, 67,7 milyonu televiziya, radio və nəşriyyata, 22 milyonu yaradıcı ittifaqlar, cəmiyyətlər və dini tədbirlərə, qalan 141 milyonu isə bu sahələr üzrə digər müəssisə və tədbirlərə xərclənib. Gənclərin fiziki inkişafı, idmanın kütləviliyinin artırılması və mədəni həyatın zənginləşdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən olaraq qalır.

Bununla yanaşı, kənd təsərrüfatının inkişafına 1,12 milyard, mənzil-kommunal təsərrüfatına 322,5 milyon, ətraf mühitin mühafizəsinə isə 374,1 milyon manat vəsait sərf olunub.

Məhkəmə-hüquq sistemi, hüquq mühafizə orqanları və prokurorluğa 335,3 milyon manat ayrılmışdır.

Bu rəqəmlər onu göstərir ki, 2025-ci ildə icra olunmuş dövlət büdcəsi təkcə makroiqtisadi sabitliyi qorumaqla kifayətlənməmiş, həm də hər bir vətəndaşın həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədini uğurla həyata keçirmişdir.

Bu layihənin əsas hədəflərindən biri də Qarabağın yenidən qurulması, doğma torpaqlarımızın işğaldan azad olunduqdan sonra çiçəklənməsidir. Biz tam əminik ki, büdcə imkanları bu istiqamətdə daha geniş addımlar atmağa imkan verəcəkdir.

2025-ci il dövlət büdcəsinin layiqincə icrasına görə bütün müvafiq dövlət qurumlarına təşəkkürümü bildirirəm. Təqdim olunan qanun layihəsini dəstəkləyir və lehinə səs verəcəyimi bəyan edirəm. Eyni zamanda, həmkarlarımı da həmin qanun layihəsinin lehinə səs verməyə çağırıram.

**Nizami Səfərov.** Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihəsinin mühüm hüquqi xüsusiyyəti onun kompleksli xarakterində özünü büruzə verir və sosial şəbəkə platformalarında yaş məhdudiyyətinin müəyyən edilməsi ehtiva olunaraq, onun kifayət qədər sərt inzibati tənbeh tədbirləri ilə təmin edilməsi nəzərdə tutulur. Bu kontekstdə milli qanunvericiliyə yeni hüquqi tənzimləmənin daxil edilməsi, şübhəsiz ki, səmərəli nəticələrə səbəb olacaq. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı tələblərin pozulmasına görə məsuliyyət nəzərdə tutan yeni 388-4-cü maddənin əlavə edilməsi, bir tərəfdən, preventiv xarakter daşıyır, digər

tərəfdən isə nümayiş etdirir ki, müəyyən olunan qadağalar deklarativ xarakter daşımır və ciddi məbləğdə inzibati cərimələrlə təmin edilir. Eyni zamanda, 388-4.1-ci və 388-4.2-ci maddələrin dispozisiyasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun göndərdiyi sorğulara müvafiq provayder tərəfindən natamam məlumatların təqdim edilməsinə görə məsuliyyətin müəyyən olunması bəzi suallar doğurur.

Layihədə inzibati məsuliyyəti şərtləndirən pozuntular sırasında natamam və ya təhrif edilmiş məlumatların təqdim edilməsi əksini tapmışdır. İkinci halda inzibati xətanın məcəllənin 13-cü maddəsində göstərildiyi kimi, qəsdən törədilməsi, yəni əməlin hüquqazidd xarakterinin dərk edilməsi, onun zərərli nəticələrinin qabaqcadan görülməsi və bunların arzu olunması, yaxud belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verilməsi əksini tapıb. Bunun əksinə olaraq, natamam məlumatın təqdim edilməsi isə ehtiyatsızlıqdan da törədilə bilər. Mənim fikrimcə, 388-4.1-ci və 388-4.2-ci maddələrin dispozisiyasında subyektiv elementin dəqiqləşdirilməsi düzgün olardı. Digər sözlərlə, inzibati məsuliyyətə yalnız müvafiq məlumatların qəsdən natamam təqdim edilməsi səbəb olmalıdır. Əgər məlumatlar ehtiyatsızlıqdan, məsələn, diqqətsizlikdən natamam təqdim edilibsə, müvafiq qurum onların dolğun formada göndərilməsini tələb edə bilər. Bu məqamın nəzərə alınması layihədə daha dəqiq formada hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə xidmət edə bilər.

**Sevil Mikayılova.** *(çıxışının davamı.)* Digər mühüm istiqamət media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasıdır. Rəqəmsallaşma və texnoloji transformasiya şəraitində media sektorunun rəqabət qabiliyyətinin qorunması üçün innovativ həllərin təşviqi xüsusi əhəmiyyət daşıyır. Belə ki,

auditoriyanın sürətlə yenilənən tələblərinə çevik cavab verilməsi əsas hədəflərdəndir.

**Vasif Qafarov.** Müzakirəyə çıxarılan qanun layihəsi rəqəmsal mühitdə uşaqların qorunması istiqamətində çox mühüm və vaxtında atılmış bir addımdır. Layihə yaş yoxlanılması, valideyn nəzarəti, zərərli məzmunun 24 saat ərzində silinməsi və illik statistik hesabatlılıq kimi sistemli tədbirləri əhatə edir və bu baxımdan beynəlxalq təcrübəyə, o cümlədən Avstraliyanın Onlayn təhlükəsizlik haqqında qanununa uyğun şəkildə hazırlanıb.

Qanun layihəsini diqqətlə nəzərdən keçirdikdə görürük ki, layihə, əsasən, struktur və profilaktik xarakterli tədbirlərə fokuslanıb. Hesab edirəm ki, layihədə uşağın həyatına real təhlükə yarandığı fərdi və təcili hallarla bağlı boşluqlar qalmaqdadır.

Belə ki, mövcud 13-4.12-ci maddə yalnız zərərli məzmunun yayılmasının qarşısının alınmasından, yəni məzmunun gizlədilməsindən bəhs edir, amma bu, təhlükənin mənbəyi olan konkret uşağa real kömək göstərilməsi demək deyil.

Təsəvvür edin ki, 16–18 yaş arası bir yeniyetmə platformada özünəqəsd niyyətini bildirən bir paylaşım edir və yaxud cinsi istismara məruz qaldığını göstərən əlamətlər nümayiş etdirir, amma bu zaman qüvvədə olan qanun provayderdən yalnız həmin məzmunun 24 saat ərzində yayılmasının qarşısını almağı tələb edir, həmin konkret uşağın həyatının xilas edilməsi üçün heç bir bildiriş mexanizmi nəzərdə tutmur. Başqa sözlə, sistem məzmunu gizlədir, amma uşağı xilas etmir.

Bu boşluğu doldurmaq məqsədi ilə təklif edirəm ki, 13-4-cü maddəyə 13-4.12-ci maddədən sonra 13-4.12-1-ci maddə kimi yeni bir norma əlavə edilsin. Bu norma provayderə bir öhdəlik qoysun ki, əgər provayder

platformada 16–18 yaş arası istifadəçinin həyatına, sağlamlığına və ya cinsi toxunulmazlığına real və labüd təhlükə yaratdığını güman etdiyi məzmun və ya davranışı, o cümlədən özünəqəsd niyyətini və ya cinsi istismar əlamətlərini aşkar edərsə, bu barədə dərhal, lakin 24 saatdan gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana məlumat verməli, eyni zamanda, istifadəçiyə dəstək xətti və psixoloji yardım resursları barədə məlumat təqdim etməlidir.

Bu öhdəliyin icra olunmaması halında məsuliyyət mexanizminin işləməsi üçün İnzibati Xətalar Məcəlləsinin 388-4.1-ci maddəsinə də müvafiq istinad əlavə edilməlidir ki, sanksiya sistemi bu yeni vəzifəni də əhatə etsin.

Hesab edirəm ki, bu təklif heç bir şəkildə layihənin əsas konsepsiyasına zidd deyil, əksinə, onu tamamlayır. Avropa Birliyinin Rəqəmsal Xidmətlər Aktının 18-ci maddəsi və Böyük Britaniyanın Onlayn təhlükəsizlik haqqında 2023-cü il tarixli Qanunu məhz bu tipli bildiriş öhdəliyini artıq tətbiq edir.

Biz də həmin beynəlxalq standarta uyğunlaşaraq qanunvericiliyimizi daha effektiv və real həyatda nəticə verə bilən bir alətə çevirə bilərik.

Maddə nömrələnməsi baxımından da bu əlavə mövcud struktura və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa tam uyğundur və heç bir ziddiyyət yaratmır.

Ona görə də təklif edirəm ki, bu əlavə norma layihəyə daxil edilsin və beləliklə, qanun yalnız zərərli məzmunu gizlətməklə kifayətlənməsin, həm də, həqiqətən, təhlükədə olan uşaqların həyatının xilas edilməsinə xidmət edən real bir mexanizmə çevrilsin.

Ümumilikdə, qanun layihəsini dəstəkləyirəm və təqdir edirəm.